## Çadırlar başqası ilə yenilənir

### Ermənilərin daha bir yalanı ifşa olundu



**Erməni mediası azərbaycanlıların Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyət zonasında artıq beşinci gündür ki, davam edən dinc aksiyası ilə bağlı saxta xəbərlər yaymaqdan əl çəkmir.**

Belə ki, Ermənistan teleqram kanallarında və bəzi KİV-də guya etirazçıların çadırları daşıyaraq aksiyanı dayandırmaları barədə xəbərlər yayılıb. Bəli, çadırlar, əslində, aparılır. Amma nə məqsədlə?

Trend-in Şuşaya ezam olunmuş müxbirinin verdiyi məlumata görə, etirazçılar çadırları aparıb yeni, daha rahat çadırlar gətirirlər.

## İstanbulda terror təşkilatının 27 üzvü saxlanılıb



**İstanbul polisi xüsusi əməliyyat keçirib.**

"Anadolu" Agentliyi xəbər verir ki, əməliyyat nəticəsində terror təşkilatı sayılan İnqilabçı Xalq Qurtuluş Partiyası Cəbhəsinə (kommunistlər - red.) üzv olmaqda şübhəli bilinən 27 şəxs saxlanılıb.

*Qeyd olunub ki, onların yaşadığı ünvanlarda çoxlu sayda təşkilata dair sənəd və rəqəmsal materiallar ələ keçirilib. Saxlanılan 27 şübhəlidən 13-ü müvafiq iş üzrə həbs edilib.*


❒ № 231 (5752), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 dekabr 2022-ci il (şənbə)




# Yolda maneə yoxdur

### Xankəndi-Laçın yolunda aksiya keçirilən yerdən növbəti humanitar maşın karvanı maneəsiz hərəkət edib

**Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarına etiraz olaraq aksiyanın keçirildiyi Xankəndi-Laçın yolundan humanitar yardım maşınlarının keçidi davam edir.**

APA xəbər verir ki, dünən axşam saatlarında Rusiya sülhməramlı kontingentinə məxsus avtomobillərdən ibarət karvanın aksiya keçirilən yerdən maneəsiz, sərbəst hərəkətinə şərait yaradılıb.

Aksiya iştirakçıları yoldan çəkilərək avtomobillərin keçidi üçün dəhliz açıb. Rusiya sülhməramlılarının maşınlarında həm ermənilərə humanitar yardım, həm də sülhməramlılara məxsus təminat yükü aparılıb. Azərbaycan dövləti və aksiya iştirakçıları bununla dinc erməni əhali ilə heç bir problemləri olmadığını bir daha nümayiş etdirib.



## 20 Azərbaycan vətəndaşı Almaniyadan geri qaytarıldı

**"Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında" Saziş çərçivəsində 15 dekabr tarixində 20 nəfər Azərbaycan Respublikası vətəndaşı Almaniya Federativ Respublikasından ölkəyə geri qəbul edilib.**

Dövlət Miqrasiya Xidmətinin İctimaiyyətlə əlaqələr idarəsindən verilən məlumata görə, geri qəbul prosesi Nazirlər Kabineti yanında Operativ Qərargahın pandemiya ilə əlaqədar müəyyən etdiyi qaydalar çərçivəsində həyata keçirilib.

*Qeyd edək ki, fəaliyyəti Dövlət Miqrasiya Xidməti tərəfindən əlaqələndirilən Reinteqrasiya üzrə İşçi Qrupu readmissiya olunan Azərbaycan Respublikası vətəndaşlarının yerli cəmiyyətə reinteqrasiyası və üzləşə biləcəkləri mümkün çətinliklərin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirir.*

## Laçın yolunda gömrük və sərhəd postları qurulmalıdır

### Millət vəkilləri Şuşa-Xankəndi yolunda keçirilən aksiyanı dəstəkləyirlər



**Parlamentin dünənki iclasında deputatlar Şuşa-Xankəndi yolunda keçirilən aksiya barəsində də danışıblar.** Millət vəkili Siyavuş Novruzov deyib ki, Rusiya sülhməramlıları oradakı ermənilərlə birləşib qanunsuz silah daşınmasına şərait yaradır, İran vətəndaşlarını qanunsuz olaraq ərazimizə buraxırlar.

Aksiyaçılar buna etiraz edirlər və biz bunu dəstəkləyirik. Bu proseslərdə əsasən gənclərimiz iştirak edir: "Azərbaycan gəncləri heç nəyi unutmur.

(səh.2)

# "Tərtər işi"ndə saxta ittihamlarla hökm çıxarılıb



**Zahid Oruc:** "Casusluq işində imtiyaz və rütbə qazananlar da kənarda qalmamalıdır"

**Qənirə Paşayeva:** "Biz müdafiə edəndə bizi ittiham edənlər çıxsınlar ortaya"

**Deputatlar "Tərtər işi"nə görə Hərbi Prokurorluğun ləğvini, işgəncə əmri verən və icraçıların adının açıqlanmasını istəyiblər.**

Milli Məclisin dünənki iclasında Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, Respublika Baş Prokurorluğunun qərarı ilə Ermənistana casusluq adı ilə məhkum edilən 19 şəxsə bəraət verilməsi, nəhayət, ədalətin qələbəsidir:

"Yalnız cənab prezidentin məsələyə müdaxiləsi və yeni İstintaq Komissiyası yaratmasından sonra 2 ay ərzində ləyaqətli müstəntiqlər yüzlərlə şəxsi dindirərək, kənar təzyiqlərə və təxribatlara baxmayaraq, 288 zərərçəkən şəxsin işini yenidən icraata qəbul edərək ümumilikdə 405 nəfərin hüquqlarını təmin edirlər.

(səh.3)

# Xalqın direniş modeli ortadadır

### Azərbaycan Şuşa aksiyaları ilə "qırmızı xətləri" yoxlayır



**Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqları, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq ekofəallar və QHT təmsilçiləri Laçın yolunda aksiyanı davam etdirir.**

Aksiyanın beşinci günündə etirazçılar ekoloji terrora son qoyulması, yataqlarda monitorinq keçirilməsi tələbləri ilə şüarlar səsləndiriblər. Şüarlarda Rusiya sülhməramlılarının komandanı Andrey Volkovla görüş tələbi də irəli sürülüb.

(səh.3)



## Valyutadəyişmə məntəqələri yenidən bərpa olunmalıdır

### İnsanların şənbə, bazar, hətta bayram günləri gedib pul dəyişmələrinə şərait yaradılmalıdır

**"Azərbaycanda şənbə-bazar və bayram günlərində banklar işləmir. Başa düşürəm ki, istirahət edirlər. Bəs vətəndaşlar, xüsusilə də turistlər pulunu necə dəyişsinlər?".**

Bunu Milli Məclisin plenar iclasında deputat Rüfət Quliyev deyib: "Qanuni lisenziya ilə işləyən 3-5 min valyutadəyişmə məntəqəsi ləğv edildi və bu səlahiyyət banklara verildi. Zəhmət olmasa, yenə də bu məsələyə baxılsın, insanlar əziyyət çəkməsin".

(səh.4)

## Ölən yoxdur

### 81 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 81 yeni yoluxma faktı qeydə alınıb, 54 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

*Azərbaycanda indiyədək ümumilikdə 825 231 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 814 749 nəfər müalicə olunaraq sağalıb, 9 989 nəfər vəfat edib, aktiv xəstə sayı 493 nəfərdir.*

## Qanunda dəyişiklik əksini tapıb

### Azərbaycanda moped idarə etmək üçün sürücülük vəsiqəsi tələb olunacaq



**Azərbaycanda moped idarə etmək üçün sürücülük vəsiqəsi tələb olunacaq.**

Bu barədə məsələ Milli Məclisin dünən keçirilən iclasında "Yol hərəkəti haqqında" Qanunda dəyişiklikdə əksini tapıb.

Təklif edilən dəyişikliyə əsasən, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan bütün nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınması və dövlət qeydiyyat nişanı ilə təmin edilməsi tələbinin müəyyənləşdirilməsi təklif edilir.

Eyni zamanda, təqdim edilən digər dəyişikliyə əsasən, nəqliyyat vasitəsinin rəngi dəyişdirildikdə onun 10 gün ərzində dövlət qeydiyyatından keçirilərək uçota alınması tələbi də nəzərdə tutulur. Müzakirələrdən sonra qanuna dəyişiklik səsvermə qoyularaq üçüncü qəbul edilib.



## Sumqayıt daha təhlükəsiz şəhər olacaq

### "Ağıllı şəhər" layihəsinin reallaşdırılması əhəmiyyətli hadisədir

(səh.5)



## "Ekoloqların tələblərinə müsbət cavab verilmir"

### Toğrul İsmayıl: "Azərbaycan dövləti bütün ərazilərində nəzarəti tam ələ keçirməlidir"

(səh.4)



# Laçın yolunda gömrük və sərhəd postları qurulmalıdır

## Millət vəkilləri Şuşa-Xankəndi yolunda keçirilən aksiyanı dəstəkləyirlər

**Parlamentin dünənki iclasında deputatlar Şuşa-Xankəndi yolunda keçirilən aksiya barəsində də danışıblar. Millət vəkili Siyavuş Novruzov deyib ki, Rusiya sülhməramlıları oradakı ermənilərlə birləşib qanunsuz silah daşınmasına şərait yaradır, İran vətəndaşlarını qanunsuz olaraq ərazilərimizə buraxırlar.**

Aksiyaçılar buna etiraz edirlər və biz bunu dəstəkləyirik. Bu proseslərdə əsasən gənclərimiz iştirak edir: "Azərbaycan gəncləri heç nəyi unutmur. Azərbaycan gəncləri bu gün köhnə nəsildən də çox Vətənini sevir, bizim gənclərimizin hər biri Prezident İlham Əliyevin dövründə vətənpərvərlik dərsləri alıblar. Biz fəxarət hissi keçiririk ki, bizim belə gənclərimiz var. Belə gəncləri, belə Ali Baş Komandanı olan dövlət hər zaman qələbəyə layiqdir".

**"Rusiya sülhməramlılarının missiyasının vaxtından əvvəl sonlandırılması tələb olunmalıdır"**

**Deputat Razi Nurullayev deyib ki, Azərbaycan vətəndaş cəmiyyəti təmsilçilərinin Şuşa-Xankəndi yolunda aksiyası əslində gecikmiş addımdır:** "Ölkəmiz bu günə kimi dözüm göstərdi, humanitar amilləri nəzərə aldı, Ermənistan və separatçıları isə bu yolu hərbi və talançılıq üçün istifadə etdi. 30 il bəs deyilmiş kimi, indi də Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə ekoloji fəlakət törədirlər". Deputat bildirib ki, bu aksiya vətəndaş cəmiyyəti təmsilçilərinin, ekoloji fəalların təşəbbüsü ilə gerçəkləşdirilib və effekt verib: "İndi aksiyanın daha da genişləndirilməsinə və tələblərin də böyüməsinə ehtiyac var. Birincisi, Xankəndi ilə Ermənistanı birləşdirən yolda sərhədçilərimiz və gömrük postumuz yerləşdirilməlidir. Ermənistan Naxçıvana gedən azərbaycanlılara dəhliz vermirsə, biz niyə Ermənistandan gələn ermənilərə əlini-qolunu sallayıb keçməsinə icazə verməliyik? İkincisi, separatizmə dəstək verən və layihə olaraq Qarabağa yerləşən erməni əsilli rusiyalı milyarder Ruben Vardanyan torpaqlarımızdan rədd olub getməlidir. Separatçıların quldur başçısı, beynəlxalq axtarışa verilmiş, haqqında qalaq-qalaq cinayət işi açılmış Araik Arutyunyanın həbs edilməsi üçün Xankəndidə əməliyyat keçirilməsi ilə bağlı məsələ tələblər arasında olmalıdır. Üçüncüsü, separatizm yuvasının Ermənistanla siyasi və hərbi əlaqələrinin tam kəsilməsi üçün kompromissiz tələblər irəli sürülməlidir. Separatizm yuvasında yaşayan erməni əsilli vətəndaşlarımızın humanitar ehtiyaclarını xarici işlər nazirimiz dediyi kimi, Azərbaycan öz üzərinə nəinki götürə bilər, həm də götürməlidir. Dördüncüsü, Rusiya sülhməramlılarının vaxtından əvvəl missiyasının sonlandırılması tələbi qoyulmalıdır. Onlar Qarabağda qaldığı müddətcə, erməni separatçılar bu məsələdən öz çirkin məqsədləri üçün yararlanacaq. Rusiya sülhməramlılarının Qarabağda qalması sülh prosesinə birbaşa maneədir. Beşincisi, dinc aksiyaçıların sayı dəfələrlə arta bilər, separatçılardan hər şey gözləmək də olar. Milli ordumuzun hissələri, polis və hərbi texnikamız onların təhlükəsizliyini təmin etməlidir".

**"30 ildir Naxçıvan Azərbaycandan aralıdır, biz bunu humanitar fəlakət kimi təqdim etmirik"**

**Millət vəkili Sabir Rüstəmxanlı da qeyd edib ki, Azərbaycan cəmiyyətinin bu gün diqqəti Şuşa-Xankəndi yolunun qovşağında olan aksiyadadır:**

"Xalq bunun nə ilə nəticələnəcəyini gözləyir. İki ildir, Rusiya sülhməramlıları orada gecə-gündüz ermənilərlə təmasdadır. Bizim əhalimiz ora yerləşmədiyi üçün Rusiya sülhməramlıları bizim əhalinin nə istədiyini bilmir. İndi isə bizim xalqın da nə istədiyini, iradəsini görürlər. Bir neçə gündür ermənilər buna soyqırım və s. kimi adlar yapışdırmağa çalışırlar. Amma necə olur ki, 30 ildir Naxçıvan Azərbaycandan aralıdır, biz bunu humanitar fəlakət kimi təqdim etmirik, amma 2 günə ermənilər yolun bağlanmasını fəlakət kimi təqdim edirlər? Təcili Azərbaycan tələb etməli və buna nail olmalıdır ki, sərhədlərimizdə, Qarabağa gələn yolun üstündə bizim sərhəd və gömrük məntəqəmiz qurulsun. Bizim oradakı ərazilərimizdə nəzarəti gücləndirməliyik: Ermənilər 2020-ci il 10 noyabr sənədini qəbul etmirlərsə, deməli, müharibənin bitdiyini qəbul etmirlər".

**"Azərbaycanı Xankəndinin qazını kəsməkdə ittiham edirlər"**

**Deputat Tural Gəncəliyev Şuşa-Xankəndi yolunda keçirilən aksiyanın sırf Azərbaycan qanunları çərçivəsində olduğunu vurğulayıb. Deputat bildirib ki, etiraz aksiyası keçirən vətəndaşların fikri ilə razıdır:** "Aksiyada da tələb olunduğu kimi, müvafiq gömrük və sərhəd postları qurulmalıdır. Digər tərəfdən, təəssüflər olsun ki, Azərbaycan vətəndaşları hələ də Ermənistanın basdırdığı minaların partlaması nəticəsində həlak olurlar. Fransa, Yunanıstan və Ermənistana yaxın olan bəzi ölkələr isə bu gün aksiyaya görə Azərbaycanı haqsız yerə qınayırlar. Azərbaycanı Xankəndinin qazını kəsməkdə ittiham edirlər. Amma Azərbaycan istəsə, bunu 2020-ci il 10 noyabrda edərdi. İkincisi, hələ orada olan qaz infrastrukturu tam Azərbaycana reinteqrasiya olmayıb. Ona görə də onların bu iddiaları da absurddur".

**"10 noyabr Bəyannaməsinin bəndləri yerinə yetirilmir"**

**Deputat Azər Badamov nəzərə çatdırıb ki, Azərbaycan öz ərazilərinə nəzarət edir və bərpa işləri aparır. Deputat xatırladıb ki, artıq 5-ci gündür ki, QHT nümayəndələri və müxtəlif sahələri əhatə edən fəallar etiraz edərək, qanunsuz əməllər üçün istifadə olunan Laçın yoluna nəzarət edilməsini və bu cinayətlərə son qoyulmasını tələb edirlər:** "Qarabağda müvəqqəti yerləşən sülhməramlıların ermənilərin özbaşınalıqlarına göz yumduqlarını müşahidə edərək səsimizi çıxarmaya bilmərik. 10 noyabr Bəyannaməsinin bəndləri yerinə yetirilmir. Beynəlxalq ictimaiyyətin bu məsələyə birtərəfli yanaşması Ermənistanı ruhlandırır və erməniləri yeni cinayətə sövq edir. Laçın yolunda dövlətimizin nəzarət-keçid məntəqələri yaradılmalıdır. Xankəndidə yaşayan erməni əsilli vətəndaşlarımızın təhlükəsizliyinin təmin edilməsinin vaxtı gəlib çatıb. Biz bunu hər zaman bəyan etmişik və bu gün də onların təhlükəsizliyini təmin etməyə hazırıq. Sülhməramlıların nəzarəti altındakı ərazilərimizdə yaşayan erməni əsilli vətəndaşlarımız Araik Arutyunyanın, Ruben Vardanyan və digər separatçıların girovluğundan azad olunmalıdır".

**"Deputatlar Şuşa-Xankəndi yolunda keçirilən aksiyalarda iştirak etməlidir"**

**Parlamentin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov deyib ki, Şuşa-Xankəndi yolunda keçirilən aksiyalarda iştirak etməlidir.** Deputat bildirib ki, millət vəkillərinin aksiya iştirakçılarının birbaşa yanında olması lazımdır: "Hesab edirəm ki, deputatlar aksiya iştirakçılarının yanında olmalıdır. Bu, dünyaya mesaj verilməsi üçün də mühüm addım olardı".

**İsmayıl**



# Azərbaycan-Türkiyə əməkdaşlığını nəzərdə tutan daha bir Saziş təsdiqləndi

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında toxumçuluq sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Fərman imzalayıb.**

Fərmana əsasən, 2022-ci il noyabrın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında toxumçuluq sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilir.

Bu Fərmanın 1-ci hissəsində qeyd olunan Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin edəcək.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərəcək.

# Qanun 2023-cü il fevralın 1-dən qüvvəyə minəcək

## Məbləği 15 min manatdan artıq olan daşınar əmlak nağdsız qaydada alınacaq

**Ümumi məbləği 15 min manatdan artıq olan daşınar əmlakın alqı-satqısı yalnız nağdsız qaydada həyata keçiriləcək.**

Bu, Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan "Nağdsız hesablaşmalar haqqında" qanuna təklif edilən yeni - 3.4.16-cü maddədə əksini tapıb.



Layihəyə əsasən, rəsmi reyestrlərdə qeydiyyata alınmış daşınar əmlakın alqı-satqısı üzrə (avtomobil satışı istisna olmaqla) ümumi məbləği 15 min manatdan artıq olan ödənişlər yalnız nağdsız qaydada həyata keçiriləcək.

Qanun qəbul ediləcəyi halda 2023-cü il fevralın 1-dən qüvvəyə minəcək.

Qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

# Qalmaqallı qanun qəbul edildi

## Dövlət qeydiyyatına alınması üçün siyasi partiyanın azı 5 min üzvü olmalıdır

**Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi üçüncü oxunuşda müzakirə edilib. Layihə səsverməyə çıxarılaraq qəbul edilib. Qanun 6 fəsil və 30 maddədən ibarətdir.**

Sənədə əsasən, dövlət qeydiyyatına alınması üçün siyasi partiyanın azı 5 min üzvü olmalıdır. Bundan əvvəlki qanunda qeydiyyat üçün yalnız min üzv tələb edilirdi. Üzvlərin sayı 4 min 500-dən aşağı olarsa, həmin partiyanın dövlət qeydiyyatının ləğvi ilə bağlı məhkəmədə iddia qaldırıla bilər. Qeydiyyatda olan partiyalara üzvlərinin sayını 5 minə çatdırmaq üçün 180 gün vaxt veriləcək. Həmçinin partiya üzvlərinin reyestri tələb edilir. Bundan başqa, siyasi partiyanı Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyətli olan azı 50 vətəndaşı (təsisçilər) təsis edə biləcək. Habelə yeni layihədə 3 faiz səs şərti ləğv olunur, seçkilərdə parlamentdə yer qazanmayan bütün partiyalar maliyyə yardımı alacaq. Əvvəlki layihədə partiya təsisçilərinin sayı 200 nəfər tələb edilirdi. Üstəlik, partiya təsisçiləri 20 il ölkədə daimi yaşamalı idi. Habelə siyasi partiyaların qeydiyyatı üçün 10 min imza tələbi qoyulurdu. Bundan başqa, iki dəfə ardıcıl seçkiləri baykot edən partiyaların qeydiyyatının məhkəmə qaydasında ləğvi tələbi də götürülüb. Bundan əvvəlki qanun 1992-ci ildə qəbul edilmişdi.



### "Seçkilərdə parlamentdə yer qazanmayan bütün partiyalar maliyyə yardımı alacaq"

**Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli deyib ki, partiya üzvlərinin reyestrində fərdi identifikasiya nömrəsi tələb olunmayacaq. Ə.Hüseynli bildirib ki, 5.3 və 20.10 maddələrdən identifikasiya tələbi çıxarılır:** "Deputatlar bunun qanunazidd olduğunu bildirirdilər. Artıq bu tələb layihədən çıxarılır".

Beləliklə, artıq partiyanın təsis yığıncağının protokolunda təsisçilərin və səlahiyyətli şəxsin fərdi identifikasiya nömrəsi, o cümlədən siyasi partiya üzvlərinin reyestrində fərdi identifikasiya nömrəsi tələb olunmayacaq.

**İsmayıl**

# Türkiyə sərhədindəki terroru yox etməyə çalışır

## Buna görə Suriya ilə danışıqlara getmək niyyətindədir



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinə Rusiya, Türkiyə və Suriya liderlərinin üçtərəfli görüşünün keçirilməsini təklif etdiyini bildirib. Ərdoğan vurğulayıb ki, bu tədbirdən əvvəl dövlətlərin nazirlərinin görüşü keçirilməlidir:**

"Hazırda gündəmdə olmayan hadisələrin inkişafı ilə əlaqədar daha sonra gündəmə gətirilə biləcək bir çox mövzular var. Biz Suriya-Türkiyə-Rusiya üçtərəfli ittifaq kimi addım atmaq istəyirik. Bunun üçün əvvəlcə kəşfiyyat xidmətlərimiz, sonra müdafiə və xarici işlər nazirlərimiz görüşməlidir. Bundan sonra liderlər kimi bir araya gələk. Mən bunu artıq Putinə təklif etmişəm".

Türkiyə lideri qeyd edib ki, Rusiya rəhbəri onun təklifinə müsbət reaksiya verib. Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanov da bildirib ki, Moskva Ərdoğanın üçtərəfli görüşlə bağlı ideyasına son dərəcə müsbət yanaşır: "Biz indi suriyalı dostlarla təmaslar aparırıq".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə açıqlamasında deyib ki, Rusiyanın son zamanlar sərgilədiyi mövqe Moskvanı Türkiyə ilə yaxınlaşdırıb.** Partiya təmsilçisinin sözlərinə görə, eyni zamanda Ankara da münasibətlərində çətinlik olan ölkələrlə dialoqun bərpasına çalışır: "İsraillə münasibətlərdə bunun şahidi olmuşuq. Türkiyənin Suriya ilə münasibətlərində əbədi problemlər və narazılıqlar ola bilməz. Münasib vaxtda əlaqələrin qiymətləndirilməsi və yenidən formalaşdırılması gözlənilən idi. Ötən günlərdə Prezident Rəcəb Tayyib Ərdoğanın Qətərdə Misirin dövlət başçısı ilə 9 ildən sonra ilk dəfə görüşü, ardınca Bəşər Əsədlə danışıqları istisna etməməsi münasibətlərin bərpa olunması ehtimallarını artırırdı. Türkiyə və Suriya arasında münasibətlərin normallaşması istəyi müəyyən səbəblərdən qaynaqlanır. Burada şərtlər də müxtəlifdir. Tükiyə və Suriya arasında 910 kilometrlik sərhəd xətti var. Bunun müəyyən hissəsi terror təşkilatı olan YPG/PKK-nın nəzarəti altındadır. Bu da Türkiyəyə ciddi risklər yaradır. Ona görə də hərbi əməliyyatlar həyata keçirilib".

**S.Əsədliyə görə, Türkiyə terroru yox etmək üçün Suriya ilə danışıqlara getmək niyyətindədir:** "Bu da cənab Ərdoğan və Bəşər Əsədin dialoqlarına dəlalət verir. Danışıqlarla bağlı istəklər təktərəfli deyil. İki ölkə arasında sərhədin təhlükəsizliyi Suriya üçün də vacibdir. Suriyada bir neçə ölkənin maraqları toqquşur. İndi bu ölkələr Türkiyə və Suriyanın yaxınlaşmasına əngəl kimi görünür. Çünki iki ölkənin çıxarlarını nə İran, nə də Rusiya qəbul edir. Görürük ki, son illər ərzində bu ölkələr vasitəçi olsa da, nəticə əldə edə bilməyiblər. Ona görə də Türkiyənin Suriya ilə birbaşa əlaqə qurmasının səbəbi elə vasitəçiləri aradan qaldırmaqdır. İndi proseslərdə ola bilsin ki, əvvəl Rusiya masada olsun. Amma bu, o demək deyil ki, Rusiya davamlı iştirak edəcək. Bir sözlə, bu gün Türkiyənin milli maraqları Suriya ilə yenidən diplomatik münasibətləri başlatmağa əsas verir".

**İsmayıl Qocayev**

**Azərbaycanlıların dinc aksiyaları davam etdiyi müddətdə separatçı-milyarder Ruben Vardanyan və onun başçılıq etdiyi şəxslər saxta xəbərlər tirajlamağa başlayıblar. Əvvəlcə Şuşa-Laçın yolundakı dinc aksiyanı "ermənilərin blokadaya alınması və humanitar fəlakət" kimi təqdim etmək istədilər.**

Lakin bu cəhdləri baş tutmadı. Çünki aksiya iştirakçıları bütün humanitar məqsədlərlə yolun açıq olduğunu bildirdilər.



# Vardanyan erməniləri zülmətə sürükləyir

## Dövlətimiz Qarabağda erməniləri terrorçu mahiyyətli şəxslərin əlindən almalıdır

Hətta bir neçə dəfə Rusiya sülhməramlılarına aid təminat maşınları da yoldan maneəsiz şəkildə keçdilər. Növbəti dəfə Vardanyan erməniləri daha acınacaqlı vəziyyətdə göstərmək üçün Qarabağda yaşayan ermənilərin qaz təminatını dayandırdı. Lakin bu addım ilk növbədə həmin ərazidə yaşayan ermənilər tərəfindən ciddi narazılıqla qarşılandı. Nəticədə Vardanyanın komandasının bu addımı "uğurlu" nəticə vermədi və qaz təminatı bərpa olundu. Bundan sonra isə Vardanyan gülünc açıqlama verərək "Azərbaycan tərəfi qazı kəsmişdi, indi də qeyd-şərtsiz açıb" deyə bildirdi. Göründüyü kimi, Qarabağda yaşayan ermənilər növbəti dəfə Vardanyan kimilərin əlində alətə çevrilməkdədir. **Politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, separatçıların öz xalqını qış şərtlərinə baxmadan qazsız qoyması onların necə mənəviyyatsız və qəddar olmasının daha bir sübutudur. Analitik vurğulayıb ki, bu yola beynəlxalq ictimaiyyətdə yalan fikirlər oyatmaq üçün baş vurulub:** "Elə bu hadisənin özü Qarabağın erməni əhalisinin onların əlində girov olduğunu sübut edir. Bu, əsl terrordur və Araik Arutyunyan, Ruben Vardanyan kimilər isə əsl terrorçulardır. Azərbaycan dövləti bu faktdan istifadə edib, Qarabağ ermənilərinin təhlükəsizliyi üçün onların qaz təminatını öz üzərinə götürməli, Ermənistandan gələn xətti isə ləğv etməlidir. Dövlətimiz Qarabağda erməniləri terrorçu mahiyyətli şəxslərin əlindən almalıdır. Hamı bilməlidir ki, Qarabağ ermənilərinin Azərbaycan dövlətindən başqa müdafiəçisi və təminatçısı yoxdur. Dinc ermənilərin həyatına təhlükə yaratdığı üçün Vardanyan terrorçu elan edilməli və ona cinayət işi açılmalıdır. Həmçinin dünya ictimaiyyətinə bu fakt barədə geniş məlumat verilməlidir. Dünya görməlidir ki, Azərbaycan xalqı keçirdiyi aksiyada haqlıdır və onların istəyi tək regiona sülhün gəlməsi yox, eyni zamanda Vardanyan kimi terrorçuların əlində əsir qalan ermənilərin azad edilməsidir".

**İsmayıl Qocayev**

# “Tərtər işi"ndə saxta ittihamlarla hökm çıxarılıb



## Zahid Oruc: “Casusluq işində imtiyaz və rütbə qazananlar da kənarda qalmamalıdır”





## Qənirə Paşayeva: “Biz müdafiə edəndə bizi ittiham edənlər çıxsınlar ortaya”

**Deputatlar ”Tərtər işi”nə görə Hərbi Prokurorluğun ləğvini, işgəncə əmri verən və icraçıların adının açıqlanmasını istəyiblər. Milli Məclisin dünənki iclasında Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, Respublika Baş Prokurorluğunun qərarı ilə Ermənistana casusluq adı ilə məhkum edilən 19 şəxsə bəraət verilməsi, nəhayət, ədalətin qələbəsidir:**

“Yalnız cənab prezidentin məsələyə müdaxiləsi və yeni İstintaq Komissiyası yaratmasından sonra 2 ay ərzində ləyaqətli müstəntiqlər yüzlərlə şəxsi dindirərək, kənar təzyiqlərə və təxribatlara baxmayaraq, 288 zərərçəkən şəxsin işini yenidən icraata qəbul edərək ümumilikdə 405 nəfərin hüquqlarını təmin edirlər. Hərbi prokuror 5 il işgəncə qurbanlarının üsyanını ”nağıl” adlandırıb, sonda isə bəlli olub ki, dövlətə və xalqa yalanı kim danışır: ”Keçmiş Baş prokuror Zakir Qaralov bir dəfə də olsun o analarla görüşmədi və saxta ittihamnamələri araşdırmadı. İndi hər ikisi Ali Baş Komandandan, xalqdan, ordumuzdan və qurbanlardan üzr istəməlidir”.

**Komitə sədri qeyd edib ki, Tərtər kimi qəhrəman şəhərin adını ləkələmək istəyən, vətəndaşların hüquq sisteminə etibarını zədələyən adamlar sonda ifşa olunub:** ”Saxta xəyanət hökmlərinin sifarişçiləri, təşkilatçıları, müdafiəçiləri, hərbi hissələrdə ”samosud” təşkil edənlər, qurbanları hospitallarda cəza palatalarına bağlayanlar, Hərbi Prokurorluğun kölə müstəntiqləri və andsız hərbi hakimlər 5 il dövlət əleyhinə təbliğata bais olduqlarına görə məsuliyyət daşıyırlar. O casusluq işində imtiyaz və rütbə qazananlar da kənarda qalmamalıdır. Torpaqları düşmən əlində olan bir xalqın 405 nəfərini satqınlıqda günahlandırmaq özü böyük xəyanətdir”.

O vurğulayıb ki, 2016-cı ilin Aprel döyüşlərində qəhrəmanlıq göstərənləri cəzalandıranlar, döyüş ruhuna zərbə vuranlar işğalçılarla, 2020-ci ildə dövlətimizi müharibədən çəkindirmək istəyənlərlə eyni cərgədədir: ”Zəfərimizdə müstəsna rolu olan 4 günlük müharibəyə qarşı təxribatın tələsinə düşənlər ordunu düşmənlə sövdələşməkdə suçlamaqla işğala dəstək veriblər. İndi görün, kimdir satqın?”. Z.Oruc əlavə edib ki, 11 nəfər həyatını itirsə də, əksəriyyəti əzablara dözərək o adı üzərinə götürməyib: ”İstintaqın əlinin çatmadığı yüz minlərlə döyüşçü ilə yanaşı, azadlıqda olan zərərçəkən şəxslər də ermənilərlə igidliklə vuruşaraq, düşmənə əsir düşmədi. İstintaqsa onlardan satqın düzəltmək istəyirdi. Prezidentin tapşırığı ilə Baş Prokurorluq elə bir qərar qəbul etdi ki, bir daha hüquq tariximizdə belə ləkəli hadisə təkrarlanmasın. Aprel döyüşlərindən sonra 405 adamı linç etdirən düşmən Qələbəmizdən sonra görün, hansı təxribatları hazırlayır. O müstəntiqlərin son 5 ildəki digər işlərdə ədalətli olduğuna kim inanar? Onlar xalqın etibarını itiriblər. Ona görə də Hərbi Prokurorluğu ləğv edib Tərtər işini ədalətlə sona çatdıran müstəntiqləri ora cəlb etmək, MTN-dən sonra Dövlət Təhlükəsizliyi Xidməti kimi uğurlu nümunə yaradan ölkə rəhbərinin qərarını xatırlatmaqda fayda var”.

Z.Oruc bildirib ki, zərərçəkənlərə təzminatı dövlət deyil, saxta işi tərtib edən şəbəkə üzvləri ödəməlidir: ”Daha 12 nəfərlə bağlı da obyektiv qərar çıxarılacağına inanırıq. Nə qədər ki cinayətkarlar azadlıqdadır, onların növbəti saxta casusluq və xəyanət ssenarisi ilə orduya və dövlətə qarşı qəsdlər davam edəcək. Dövlətin gücü Ulu Öndərin ”qoy ədalət Zəfər çalsın” ideologiyasını əbədi və dönməz etməsidir”.

**Millət vəkili Qənirə Paşayeva da qeyd edib ki, bu hadisəni törədənlər üzr istəməlidir:** ”Onlar Tərtər hadisələrindən sonra bəraət alanlardan, şəxsən bizdən də üzr istəməlidirlər. Çünki onların valideynləri gəlib bizə ağlayırdılar, həmin insanların uşaqları məktəbə getməyə utanırdı. Biz bunlarla bağlı müraciət edəndə millət vəkillərini ittiham edirdilər ki, casusları müdafiə edirik”.

***Deputat bildirib ki, bu hadisəni törədənlər ortaya çıxmalıdır:*** ”Televiziya ekranlarında əvvəllər necə ittiham edirdilərsə, indi də çıxıb zəhmət çəkib üzr istəsinlər. İnsanlarımızın heç çoxunun xəbəri yoxdur ki, bəraət alanlar var. Onlara işgəncə verənləri cəmiyyət görməlidir. Müstəntiqlər təkrar bu sistemdə çalışacaqlarmı? Onda xalqın bu hüquq sisteminə inamı qala bilərmi? Prezident İlham Əliyevə təşəkkür edirik ki, bu məsələni nəzarətə aldı. O ailələr məhz Prezident bu məsələni nəzarətə götürdüyü üçün haqlarını bərpa edə bildilər. İşgəncə əmrini verənlər, işgəncələri verənlər xalqa göstərilməlidir. Azərbaycan cəmiyyəti o müstəntiqləri görməlidir. Biz müdafiə edəndə bizi ittiham edənlər çıxsınlar ortaya. Deməli ki, biz casusları yox, ədaləti müdafiə etmişik. Televiziyalarımız geniş şəkildə bəraət alan insanlarla bağlı verilişlər versin ki, onların uşaqları artıq məktəblərə utanmadan getsinlər. Bir daha ədalətin bərpası üçün çalışanlara təşəkkür edirəm”.

**İsmayıl**




# Xalqın dirəniş modeli ortadadır

## Azərbaycan Şuşa aksiyaları ilə “qırmızı xətləri” yoxlayır

**Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqları, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq ekofəallar və QHT təmsilçiləri Laçın yolunda aksiyanı davam etdirir.**

Aksiyanın beşinci günündə etirazçılar ekoloji terrora son qoyulması, yataqlarda monitorinq keçirilməsi tələbləri ilə şüarlar səsləndiriblər. Şüarlarda Rusiya sülhməramlılarının komandanı Andrey Volkovla görüş tələbi də irəli sürülüb. Etirazçılar bildiriblər ki, Rusiya sülhməramlılarının olduğu bütün postlarda xidmət Azərbaycanın aidiyyəti dövlət qurumları ilə birgə təşkil edilməlidir. Aksiya iştirakçılarına ictimai dəstək isə gün-bəgün artır. Etirazçılar tələbləri yerinə yetirilməyənə qədər aksiyanı davam etdirəcəklərini vurğulayırlar.

Vəziyyəti şərh edən analitik Aqşin Kərimov ”Şərq”ə söyləyib ki, ”Azərbaycan bu aksiyalarla postmünaqişə dövründəki riskləri təhlil etmək üçün ”qırmızı xətləri” yoxlayır: ”Aksiyalar sayəsində Azərbaycanda da, Ermənistanda da Rusiya sülhməramlılarına olan etimad mühiti zəifləyir. Rusiyanın hərbi cəhətlərlə mübahisələri tənzimləmək cəhdlərinin effektivliyi sual altına düşür. Azərbaycan aksiyalarla xalqın dirəniş modelini nümayiş etdirir, bu məsələdə ekoaktivistlərin qabağa verilməsi Qərb üçün etiraza ”barmaq yeri” qoymamalıdır.

Aksiyalar Qarabağdakı erməni əhalinin şərti qarışıqlıqlarda hansı praktik cavab verəcəyini yoxlamaq baxımından önəmlidir. Ermənilərin Xankəndiyə mitinq üçün lazımi sayda adam yığa bilməməsi Qarabağdakı erməni əhalinin sayına dair rəqəmlərin şişirtmə olduğunu isbatlayır. Eləcə də, Laçın yolu ilə erməni əhalinin sayının çox olmasını göstərmək üçün yalançı köç həyata keçirildiyini təsdiqləyir”.

**Aygün Tahir**

# Artıq müzakirə mövzusu ancaq sülh prosesidir

## Azərbaycanın Ermənistandan konkret tələbləri var

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlama verib. XİN başçısı bu ay ermənistanlı həmkarı ilə görüşəcəyini istisna etmədiyini deyib:**



”Ola bilsin ki, dekabrın sonunda Ermənistanın xarici işlər naziri ilə görüşüb sülh müqaviləsi ilə bağlı danışıqlar aparacağıq. Son iki il ərzində üçtərəfli formatda müxtəlif vaxtlarda görüşlər keçirilib. Digər formatlarda görüşlərin keçirilməsi istisna deyil. Azərbaycan tərəfi istənilən formatda görüşlərin keçirilməsini hər zaman dəstəkləyir. Müsbət nəticələr olmasa da, açıq mövzuların müzakirəsi müsbət haldır. Ən azından qarşı tərəf üzərinə götürdüyü öhdəliklərlə bağlı vədlərini də yerinə yetirməlidir”.

Görüşün baştutma ehtimalı ilə bağlı ”Şərq”ə danışan politoloq Turab Rzayevin qənaətincə, Qarabağa dair prosesləri Ermənistandan uzaqlaşdırmışıq: ”Qarabağla bağlı xüsusi məsələlərin danışılacağını düşünmürəm. Ermənistan sülh sazişinin imzalanması istiqamətində müzakirə aparmaq, eləcə də, Azərbaycanın Qarabağdakı erməni icmasına təsir imkanlarını qəbul etmək istəmir. Azərbaycan konkret tələblər irəli sürür.

Hərbi texnikaları, hərbçiləri çıxartmağı tələb edir. Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanımasını, eyni zamanda Naxçıvana maneəsiz keçid üçün yol verilməsini tələb edir.

Onlar isə fərqli manipulyativ addımlar atırlar. Dəhlizi açmamaq üçün deyirlər ki, üç ədəd keçid məntəqəsindən yararlanın.

Təbii, heç bir Azərbaycan vətəndaşının sərhədi keçərək Ermənistana daxil olub Naxçıvana getməyəcəyi aydın məsələdir. Qarabağın ”status” məsələsini qaldırır. Sonra söyləyir, guya, Azərbaycan formatı dəyişməyə çalışır. Qarabağda hər hansı idarəetmə forması əldə etməyə səy göstərir”.

**Aygün Tahir**

# "Arqumentı i faktı" qəzetinin ölkəmizdə çapı dayandırılmalıdır

## Etibar Əliyev: “Azərbaycanın əleyhinə yazılar yazan jurnalistlərin ölkəmizə gəlişi qadağan olunmalıdır”



**Dünən Milli Məclisin payız sessiyası çərçivəsində növbəti iclası keçirilib. İclasın gündəliyinə 25 məsələ daxil edilib. Deputatlar cari çıxışlarda bir sıra məsələlərdən danışıblar. Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov rezidenturada təhsil alanların problemlərini qaldırıb.**

Deyib ki, Nazirlər Kabineti tərəfindən 2013-cü ildə ortaya qoyulmuş rezidentura ilə bağlı sənədə yenidən baxılmalıdır: ”Səhiyyə islahatları bu gün davam edir. Tibb fakültəsinə yüksək balla qəbul olanlar rezidentura üçün xarici ölkələrə daha çox yönəlirlər və bu da insan kapitalının xaricə axını deməkdir. Bəzi insanlar bunu çox gözəl hadisə kimi qiymətləndirirlər. Amma bu, belə deyil. Rezidenturaya qəbul olmayanlar daha yüksək - 800, 1000, 1500 manata, rezidenturaya daxil olan zaman yüksək bal toplayanlar isə 5 il ərzində 300 manata işləməyə məcbur olurlar. Bu yanaşma dəyişməlidir. Hadisələrə iqtisadi baxış gündəmə gəlməlidir”.

**Deputat Ceyhun Məmmədov deyib ki, Azərbaycanda dini fəaliyyət sahəsində aktuallıq kəsb edən məsələlərdən biri də müxtəlif dini qrupların ayrı-ayrı dövlətlər, xüsusilə İran tərəfindən maliyyələşdirilməsinin qarşısının alınmasıdır:** ”İran Azərbaycanda yaratdığı şəbəkəni, bəzi din xadimlərini müxtəlif yollarla maliyyələşdirir. Məsələ yalnız bununla bitmir. Bununla yanaşı, Azərbaycanda toplanan xüms və zəkatın ayrı-ayrı şəxslər tərəfindən yığılaraq İrana göndərilməsi və bundan başqa məqsədlərlə istifadəsinə dair ciddi iddialar var. Əvvəlki dövrdə quru sərhədləri açıq olanda vətəndaşlarımız İrana və digər dövlətlərin ərazisinə keçərək bu vəsaiti əldə edirdilər. İndi isə bu vəsait başqa yollarla çatdırılır. Burada bir sıra hallarda banklardan da istifadə edilir. Ümumiyyətlə, Azərbaycanda fəaliyyət göstərən ayrı-ayrı dini qrupların maliyyələşdirilməsi mexanizmləri ciddi nəzarətdə saxlanılmalı və qeyri-qanuni maliyyələşmənin qarşısı alınmalıdır”.

**“Əleyhimizə yazan jurnalistlərin ölkəmizə gəlişi qadağan olunmalıdır”**

**Deputat Etibar Əliyev deyib ki, Azərbaycana qarşı informasiya müharibəsində İranın televiziyaları, Rusiyada çıxan ”Arqumentı i faktı” qəzeti aktiv iştirak edir:** ”Azərbaycana kənardan gələn qəzetlərin və jurnalların yayılmasına nəzarət olmalıdır. Ölkəmizə bu qəzet və jurnallar poçt vasitəsilə gətirilir”. Deputat bildirib ki, ”Arqumentı i faktı” qəzetinin 56 səhifəsindən 24 səhifəsi əlavə kimi çap olunur: ”Qəzetdə ölkəmiz əleyhinə məqalələr gedir. Təklif edirəm ki, ”Arqumentı i faktı” qəzetinin ölkəmizdə çapı dayandırılsın. Düşünürəm ki, ölkəmiz əleyhinə yazılar yazan jurnalistlərin ölkəmizə gəlişi qadağan olunmalıdır”.

**“2022-ci ildə qaz limitlərinin sıfırlanması yubandı”**

**Milli Məclisdə qaz limitlərinin vaxtında sıfırlanması məsələsi gündəmə gətirilib. Deputat Vüqar Bayramov deyib ki, 2022-ci il sona çatır və 2023-cü ilin əvvəlində qaz limitləri yenidən sıfırlanacaq. Deputat xatırladıb ki, 2022-ci ildə qaz limitlərinin sıfırlanması 10 gün yubandı:** ”Daha məqsədəuyğun olardı ki, ”Azəriqaz” İstehsalat Birliyi tərəfindən limitlərin sıfırlanması vaxtında həyata keçirilsin, problem olmasın. Çünki bütün hallarda ilin sonuna doğru insanlar qaza görə daha yüksək limitlərlə ödəniş edir və limitlərin sıfırlanması yubandığı halda onlar yeni ildə də mavi qazdan istifadəyə daha yüksək ödəniş etməli olurlar”.

**“Niyə vətəndaş qaz çəkməlidir?!”**

**Deputat Qənirə Paşayeva da qazla bağlı problemləri diqqətə çatdırıb:** ”Ölkə ərazisində qazlaşma prosesi yekunlaşmalıdır. Seçicilərlə görüşə biz gedirik, qurumlar seçicilərə cavab vermir. Tovuz rayonunda elə kəndlər var ki, qonşuda qaz yanır, amma qarşı evə qaz verilmir. Tovuzda 2 781 evə ümumiyyətlə hələ qaz verilmir. Cavabdeh qurum deyir ki, vətəndaş özü qazı çəksin. Niyə vətəndaş qaz çəkməlidir?! İcra hakimiyyəti də, deputat da Baş nazirə, aidiyyəti qurumlara məktub yazıb, amma məsələyə baxılmır. Təklif edirəm ki, bu sahəyə cavabdeh qurumlar gəlib Milli Məclisdə cavab versinlər. Aidiyyəti qurumları parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinə dəvət edək”.

**İsmayıl Qocayev**

# "Sülhməramlılar haqlı olduğumuzu anlamağa başlayıblar"

## Bahəddin Həziyev: “Çünki o da insandır və millətin şaxtada, soyuqda mübarizəsini görüb, simpatiyasını ifadə edib”

**Azərbaycanın Qarabağ ərazisində müvəqqəti xidmət aparan Rusiya sülhməramlıları ilə bağlı yayılan video və şəkillər sosial şəbəkədə böyük rezonans doğurub. Yayılan kadrlarda azərbaycanlı ekofəalların sülhməramlı kontingentin üzvü ilə səmimi söhbəti yer alıb.**




Rusiya sülhməramlısı aksiya iştirakçısının qulağına ”Narahat olmayın, Qarabağ Azərbaycandır” sözlərini pıçıldayır. Həmçinin rusiyalı başqa bir hərbçi isə ekofəal Günel Yaz şəkil çəkərkən boz qurd işarəsi tutur.

**Vəziyyəti ”Şərq”ə dəyərləndirən ”Bizim yol” qəzetinin baş redaktoru Bahəddin Həziyev qeyd edib ki, sülhməramlılar artıq öz missiyalarında spesifik davranışlar tapmağa və haqlı olduğumuzu anlamağa başlayıblar:** ”Ümumiyyətlə, burada insan faktorunu nəzərə almaq lazımdır. Onlar hərbçi və ya rus olsalar da, bu kimi məsələlərə münasibətləri yaranır. Hərçənd ki, qaydalara görə, onlara bu düşüncələri ifadə etmək olmaz. Amma müəyyən bir zamandan sonra, hətta əmr altında olsa belə, insanlar həqiqətləri dərk edə bilər. Çünki o da insandır və millətin şaxtada, soyuqda mübarizəsini görüb, simpatiyasını ifadə edib”.

**Nihat Müzəffər**

# Tibb Universitetində təcili tibbi kafedranın yaradılması böyük uğur olacaq

## Tələbə artıq son kurslarda seçimini edib sırf təcili yardım həkimi olaraq ixtisaslaşacaq



“Texniki problemlər həll edilsə, təcili yardım briqadaları daha çox insanın həyatını xilas edər”

**Təcili yardım sisteminin təkmilləşidirlməsi həftəsi tədbirləri çərçivəsində dünən ”Azərbaycanda təcili yardım sisteminin təkmilləşdirilməsi” adlı simpozium keçirilib. Simpozumda çıxış edən səhiyyə nazirinin müavini Nadir Zeynalov qeyd edib ki, ölkəmizdə insanları ən çox narahat edən məsələ sağlamlığın təcili problemləridir. O bildirib ki, səhiyyə sistemi bu narazılığa nə qədər çevik cavab verərsə, bir o qədər vətəndaşların məmnunluğu təmin olunar:**

”Ölkəmizdə son illər səhiyyə sistemində bir çox islahatlar aparılıb. İlk növbədə bu, səhiyyənin maliyyələşməsinə aiddir. Bununla yanaşı əsas məsələlərdən biri təcili tiblə bağlı olan sistemin təkmilləşdirilməsidir. Çox sevindirici haldır ki, ÜST buna kömək edəcək bir layihə təqdim edib. Bununla bağlı 3 əsas istiqamətdə iş aparılır”. ÜST-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı öz açıqlamasında bildirib ki, pandemiya dövründə təcili tibbi yardım xidmətlərinin nə qədər vacib olduğunun şahidi olduq. Məqsəd bu istiqamətdə ciddi təkmilləşdirmələri həyata keçirməkdir”. O qeyd edib ki, bütün dünyada və Azərbaycanda da pandemiya azalıb: ”Ümid edirik ki, bundan sonra yoluxma sayı azalacaq. Amma bu o demək deyil ki, yeni pandemiya olmayacaq. Ona görə bütün təcili tibbi yardım sistemlərini və digər tibb sistemlərini gücləndirməkdə fayda var”.

”Azərbaycanda güclü səhiyyə sistemi yalnız öz vətəndaşlarını qorumur, həmçinin qlobal səhiyyə təhlükəsizliyini gücləndirir”. Bunu çıxışı zamanı USAID-in Azərbaycandakı missiyasının direktoru Maykl Nerbass deyib. O qeyd edib ki, təcili tibbi yardım işlərinin gücləndirilməsi USAİD-lə Azərbaycanın əsas işlərindən biridir: ”Hər kəs bilir ki, hər hansı bir sahəni inkişaf etdirmək üçün güclü təhsil olmalıdır. Hər ölkə özünəməxsusdur və buna görə o ölkəyə uyğun yanaşma olmalıdır. Əməkdaşlıq bizim işimizin əsasını təşkil edir. Biz bu vasitə ilə dünyada olan uğurlu təcrübələri Azərbaycana gətirməyə çalışırıq”.

Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli isə qeyd edib ki, gələn il Azərbaycan Tibb Universitetində təcili tibb kafedrası yaradılacaq. O qeyd edib ki, təcili tibbi yardımın tədrisi artıq proqrama salınıb. Bu sahə gələn ildən tələbələrə tədris olunacaq.

Ölkəmizdə təcili tibbi yardım sahəsində əsas problem nədir və ADTU-da təcili tibb kafedrasının açılması hansı üstünlüyü vəd edir?

**Həkim-psixoterapevt Azad İsazadə ”Şərq”ə açıqlamasında Tibb Universitetində təcili tibb kafedrası olmasının üstünlüklərini izah etdi:**

- Mən də Tibb Universitetini bitirmişəm. Təcili yardımın nəzəriyyəsi və təcrübəsi bizə öyrədilirdi. Amma hər kafedra tibbin özünə aid hissəni tədris edirdi. Məsələn, kardioloji kafedra ürək-damar sistemi ilə bağlı yaranmış problemi necə təcili şəkildə aradan qaldırmaq, həyat üçün yaranmış təhlükəni minimuma necə endirməyi öyrədirdi. Cərrahi kafedra qanaxmanı necə təcili dayandırmaq, yaranın təcili tikilməsini, üzərinin bağlanmasını, otorinolarinkologiya burun-boğaz problemləri, tutalım, boğaza yad cisim düşübsə, onu təcili necə çıxarmaq və sair... məsələləri tədris edirdi, tələbələrə təcrübə qazandırırdı. Amma Tibb Universitetində ayrıca təcili tibb kafedrası açılacaqsa, deməli, tibbin bütün sahələrinin öyrədilməsi bir kafedra nəzdində cəmləşəcək, hər bir sahə ayrı-ayrılıqda deyil, bir yerdə, cəm halında bir kafedra nəzdində tədris olunacaq. İlkin, təcili yardım tibbin bütün sahələri üzrə birləşdiriləcək və tələbələrə öyrədiləcək. Əlbəttə, bu, müsbət haldır. Yəqin ki, bu, sonuncu kurslarda olacaq. Və tələbələrə ixtisas seçimi zamanı sırf təcili yardım həkimi ixtisasını seçmək imkanı veriləcək. Bir var, tələbə ali məktəbi bitirdikdən sonra təyinatla təcili yardımda çalışmağa göndərilsin, orada işləyə-işləyə təcrübə toplasın, bir də var, tələbə artıq son kurslarda seçimini edib sırf təcili yardım həkimi olaraq ixtisaslaşsın. Bu, əlbəttə, böyük üstünlükdür. Hesab edirəm ki, Tibb Universiteti təcili tibb kafedrasının yaradılmasında mövcud hansısa modeli əsas götürəcək. Ümid edirəm ki, uğurlu başlanğıc olacaq, ölkədə ixtisaslaşmış təcili yardım həkimləri fəaliyyət göstərəcək.

**A.İsazadə hazırda ölkədə təcili tibbi yardımın fəaliyyətində əsasən texniki problemlərin olduğunu dedi:**

- Təcili yardımda savadlı, təcrübəli həkimlər çoxdur. Bizim problemimiz həkimlərlə bağlı deyil, texniki məsələlərlə bağlıdır. Təcili yardım maşınlarının, həkim briqadalarının sayı çoxaldılmalıdır. Və təcili yardım maşınına digər avtomobil vasitələri həmişə yol açmalıdır. Əgər təcili yardım maşını tıxac səbəbindən çağırışa gecikirsə, vəziyyəti ağırlaşmış şəxsə məhz ünvana gec çatdığı üçün yardım edə bilmirsə, bu, həkimlərin problemi deyil. Yollarda yaşanan sıxlıq, tıxaclar, təcili yardım maşınları üçün xüsusi zolaqların olmamasının yaratdığı problemdir. Necə ki biz, siz tıxac səbəbindən işə gecikirik, eləcə də təcili yardım briqadası çağırışlara gecikir, vətəndaşın köməyinə çatmaqda zaman itirir. Amma danlanan, təzyiqə məruz qalan da həkimlər olur. Texniki problemlər həll edilsə, təcili yardım briqadaları daha çox insanın həyatını xilas edər.

**Məlahət Rzayeva**




**”Azərbaycanda şənbə-bazar və bayram günlərində banklar işləmir. Başa düşürəm ki, istirahət edirlər. Bəs vətəndaşlar, xüsusi ilə turistlər pulunu necə dəyişsinlər?”.**

Bunu Milli Məclisin plenar iclasında deputat Rüfət Quliyev deyib: ”Qanuni lisenziya ilə işləyən 3-5 min valyutadəyişmə məntəqəsi ləğv edildi və bu səlahiyyət banklara verildi. Zəhmət olmasa, yenə də bu məsələyə baxılsın, insanlar əziyyət çəkməsin”.

# Valyutadəyişmə məntəqələri yenidən bərpa olunmalıdır

## İnsanların şənbə, bazar, hətta bayram günləri gedib pul dəyişmələrinə şərait yaradılmalıdır

**İqtisadçı-ekspert Əyyub Kərimli ”Şərq”ə açıqlamasında bu məsələni bir neçə dəfə qaldırdığını deyib:** ”Azərbaycanda xarici valyuta almaq istəyən vətəndaşlar ciddi problemlərlə üzləşirlər. Övladları xaricdə oxuyan, xaricə turist səfərinə getmək istəyən vətəndaşlar xüsusilə çətinlik çəkirlər. Bizdə bayram günlərinin çox olması və şənbə-bazar günləri bank sektorunun işləməməsi sadəcə valyutadəyişmə yox, idxal-ixrac və digər daxili əməliyyatlar üçün də problem yaradır”.

“Əgər Azərbaycanda turizmi inkişaf etdirmək istəyiriksə, təhlükəsizliyi təmin edilməklə 24 saat işləyən valyutadəyişmə məntəqələri olmalıdır”

”Exchange”lərin yenidən açılmasına zərurət olduğunu deyən iqtisadçının sözlərinə görə, valyutadəyişmə məntəqələrinin yenidən fəaliyyəti imkan verəcək ki, insanlar asan, sərbəst şəkildə - şənbə, bazar, bayram günlərinə baxmadan gedib pullarını dəyişə bilsinlər: ”Ölkədə valyuta mübadiləsi fəaliyyəti göstərmək üçün müəyyən edilmiş qaydalar var. Onsuz da valyutadəyişmə əməliyyatları üçün 20 min manat limit qoyulub.

Turizmin inkişafı baxımından da valyutadəyişmə məntəqələrinin açılmasını müsbət hesab edirəm. Əgər Azərbaycanda turizmi inkişaf etdirmək istəyiriksə, təhlükəsizliyi təmin edilməklə 24 saat işləyən valyutadəyişmə məntəqələri olmalıdır. Əgər biz turizmi inkişaf etdiririksə, hansısa xarici vətəndaş Azərbaycana valyuta gətirirsə, bunlar üçün münbit şərait yaratmalıyıq ki, gəlsin, dünyanın hər yerində olduğu kimi pasportunu versin və pulunu dəyişib getsin”.

**Şəymən**

# Ciddi problemlər yaranacaq

## Qüdrət Həsənquliyev: “İqtisadiyyat Nazirliyinin nümayəndələri də gəlib, ölkədə kölgə iqtisadiyyatı ilə bağlı problemə aydınlıq gətirsinlər”



**”Qanun mütərəqqi qanundur, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının qarşısını alacaq”. Bu barədə ”Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanun layihəsinin birinci oxunuşunda Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib. Deputat bildirib ki, 1993-cü ildə qəbul edilmiş olunmuş Konstitusiya qanunu var:**

”Həmin Konstitusiya qanunu varidata təminat verilməsi haqqındadır. Həmin qanunda qeyd olunur ki, Azərbaycan Respublikasında hər kəs və respublika ərazisində yerləşən qeyri-dövlət hüquqi şəxsləri, onlarda olan daşınar və daşınmaz əmlakı, pulu, valyutanı və sair varidatı izahat vermədən, deklarasiya və başqa sənəd təqdim etmədən, istehsal, kommersiya fəaliyyəti və qanunvericiliklə qadağan edilməyən digər fəaliyyət sahələrinə sərbəst yönəldə bilər. Qanun 2 il müddətinə qəbul olunmuşdu, sonra 2 il müddəti çıxarıldı, 1995-ci ilin sentyabrında müddətsiz oldu. 1995-ci ildə biz yeni Konstitusiya qəbul etdik. Yeni Konstitusiyanın 8-ci maddəsində də qeyd olunurdu ki, əvvəlki qanunlar Konstitusiya ilə ziddiyyət təşkil eləmirsə, öz hüquqi qüvvəsini saxlayır. Yəni bu varidata təminat verilməsi haqqında konstitusiya qanunu var. Bu qanunu ləğv eləmədən yeni qanunun qəbul olunması bizim üçün çətinlik yaradacaq. Ona görə ki, Konstitusiya qanunu ilə ziddiyyət təşkil edir”.

**Deputat Konstitusiya qanunundan başqa da ciddi problemlər olduğunu deyib:** ”Biz 2016-cı ildə ”Nağdsız ödənişlər haqqında” qanun qəbul etdik. Bu il dəyişiklik etdik və 4 min manatdan artıq nağdsız ödənişlər qadağan edildi. Xatırlayırsınızsa, Mərkəzi Bankın keçmiş sədri Elman Rüstəmov çıxış elədi və dedi ki, evlərdə 10 milyard dollardan artıq vəsait var. Bundan sonra səhv etmirəmsə, 7 bank da bağlandı. Bir həftə əvvəl oxudum ki, 7 bankın əmlakı hələ indi özəlləşdirməyə çıxarılır ki, bankda pulları batan insanların vəsaitinin bir hissəsi qaytarılsın. İnsanların banka inamı itib. Biz Beynəlxalq Bankı xatırlayırıq, hansısa dələduzlar 10 milyard dollardan artıq vəsaiti dağıtdılar, sonradan xalqın pulları hesabına bankın fəaliyyəti bərpa olundu. İnsanların banka inamı yoxdur, ona görə də insanlar pullarını evdə saxlayırlar. Belə olan təqdirdə yeni qanunla 20 min manatdan yuxarı bütün vəsaitlərlə bağlı banklar tərəfindən müştəri uyğunluğu adı altında sənədlər tələb olunacaq ki, onun mənbəyini göstər. Biz bilirik ki, bu yolla korrupsiyanın qarşısını almayacağıq, əslində korrupsiya daha da çiçəklənəcək. Bunun nümunəsini də göstərmək istəyirəm. Vaxtilə qanun qəbul elədik ki, hər ay heç bir şəxs 30 min manatdan artıq bank hesabından vəsait çıxara, nağdlaşdıra bilməz. Burada kommersiya ilə az-çox əlaqəsi olan şəxslər bilirlər və istənilən sahibkarlardan soruşsanız aydın olacaq ki, o məbləği nağdlaşdırmaqla bağlı heç bir problem yoxdur. Digər toxunulmaz şəxslərlə cinayət əlaqəsinə girirlər, köçürmələr edir, saxta müqavilələr bağlayırlar. Sadəcə olaraq bu zaman qazanclarının 10-15 faizini itirirlər. İndi nə olacaq? Bu, ona gətirib çıxaracaq ki, kimsə ev, avtomobil almaq istəyirsə, notariusa gedəcək, hansısa bankla danışacaq və orada ona deyəcəklər ki, danışdığınız məbləğin 10 faiz artığını verin ki, sizdən evin, avtomobilin pulunu haradan aldığınızı tələb etməyək”.

**Q.Həsənquliyev kölgə iqtisadiyyatı ilə bağlı problemə də toxunub:** ”Yaxşı olardı ki, bura İqtisadiyyat Nazirliyinin nümayəndələri də gəlib, ölkədə kölgə iqtisadiyyatı ilə bağlı problemə aydınlıq gətirsinlər. Bir çox iqtisadçı-ekspert bu barədə fikir bildirir. Məsələn, biri kölgə iqtisadiyyatının həcminin 65 faiz, digəri daha çox olduğunu deyir. Bu qədər böyük bir kölgə iqtisadiyyatının olduğu ölkədə müəllimlər repetitorluqla, həkimlər xəstələrin ödədiyi pulla yaşayırlar. Yəni belə bir vəziyyətdə biz bunu bura daxil edəcəyiksə, səmimiyyətlə deyirəm ki, böyük bir narazılığa yol açacağıq. Bizim cəmiyyətimiz, ölkədə mövcud iqtisadi münasibətlər sistemi hələ imkan vermir ki, bu normanı daxil edək. Həm də hesab etmirəm ki, dövlət hazırda bütün vətəndaşlarına şübhə ilə yanaşmalıdır. Biz ora daxil edə bilərik ki, məsələn, şübhə yarandıqda onun mənbələri barədə arayış tələb oluna bilər. Ucdantutma hamıdan bu tələb olunsa, doğru olmaz və ciddi problemlər yaradacaq”.

**İsmayıl**

# "Ekoloqların tələblərinə müsbət cavab verilmir"

## Toğrul İsmayıl: “Azərbaycan dövləti bütün ərazilərində nəzarəti tam ələ keçirməlidir”



**Azərbaycan ekoloqları və digər qurumların nümayəndələrindən ibarət heyət Rusiya sülhməramlıları ilə növbəti görüş keçiriblər.**

Monitorinq qrupunun rəhbəri Məsim Məmmədov bildirib ki, Rusiya sülhməramlılarının qərərgahında keçirilən görüşdə təqdim edilən yol xəritəsinə uyğun olaraq ”Qızılbulaq” qızıl və ”Dəmirli” mis-molibden yataqlarına yerində baxış həyata keçirilməsi, müvafiq monitorinq və inventarizasiya işlərinin təşkili məsələləri müzakirə olunub.

Əfsuslar olsun ki, monitorinq qrupunun yataqlara yerində baxış keçirməsinə lazımi şərait yaradılmayıb və qarşıya qoyulan vəzifələrin icrasına nail olunmayıb. Ekoloqlar bir daha qeyd ediblər ki, yataqların qanunsuz istismarı dayandırılmalı, ərazidə kompleks monitorinq işləri həyata keçirilməlidir.



**Ankara Universitetinin professoru, politoloq Toğrul İsmayıl ”Şərq”ə açıqlamasında deyib ki, son yaşanan hadisələr göstərdi ki, Rusiya sülhməramlıları öz missiyalarını icra etmir və davamlı olaraq səlahiyyətlərini aşırlar.** Professor vurğulayıb ki, Qarabağda qanunsuz erməni silahlılarının açıq-aşkar fəaliyyəti, separatçıların özlərini ”müstəqil” qurum kimi təqdim etmə cəhdləri, Azərbaycan toponimlərinin təhrif olunması və s. təxribatlar məhz Rusiyanın gözü qarşısında baş verir: ”İndi də Rusiya sülhməramlıları Azərbaycan ekoloqlarının tələblərinə müsbət cavab vermir və öz hərəkətlərini davam etdirirlər. Bu, yolverilməzdir. Azərbaycan dövləti bütün ərazilərində nəzarəti tam ələ keçirməlidir. Əks halda bənzər təxribatların ardı kəsilməyəcək. Sülhməramlıların əsas missiyası bölgədə təhlükəsizliyi təmin etməkdir, qurumların öz işini görməsinə mane olmaq yolverilməzdir. Etiraf etmək lazımdır ki, rus sülhməramlıları özlərini ”ağa” kimi aparırlar. Bu problemin həlli yolu siyasidir. Azərbaycan və Rusiya rəhbərliyi, o cümlədən müvafiq qurumlar arasında mütləq anlaşma imzalanmalıdır. Rusiya sülhməramlılarının fəaliyyət istiqamətləri, çərçivəsi və əhatə dairəsi qəti şəkildə müəyyənləşməlidir. Sülhməramlıların fəaliyyət forması haqqında qanuni əsaslar yoxdur. Ona görə də torpaqlarımızda özbaşınalıq edirlər”.

T.İsmayıl vurğulayıb ki, indiki məqamda sülhməramlılar öz davranışları ilə üçtərəfli sazişin müddəalarını pozurlar: ”Sazişin təməlində dəhlizlərin qarşılıqlı şəkildə açılması dayanır. Əgər erməni tərəfi Zəngəzur dəhlizini istəmirsə, Laçın yolunun da açıq qalması qəbuledilməzdir. Buna rəsmi Bakının tam hüququ var. Azərbaycanın bütün dövlət qurumları öz torpaqlarımızda qanuni vəzifələrini icra etmək, proseslərə nəzarət etmək ixtiyarına sahibdir. Onların sərbəst fəaliyyətinə qeyd-şərtsiz imkan yaradılmalıdır. Çünki DİN, ”Azərişıq”, ”Azəriqaz”, ”Azərsu”, ”Azərenerji”, o cümlədən ekoloqlar və başqa qurumlar ermənilərin təhlükəsizliyinə hansısa təhdid yaratmır. Qarabağda yaşayan ermənilər də Azərbaycan vətəndaşıdır”.

**İsmayıl Qocayev**

# Ərdoğan özünə rəqib kimi İmamoğlunu görmək istəyir

## Ola bilsin ki, müxalifətin əsas namizədi Mansur Yavaşdır, lakin indidən üzərinə hücumlar olmasın deyə ehtiyatlı davranılır



**Türkiyə növbəti prezident seçkilərinə hazırlaşır. 2023-cü il iyunun 18-də baş tutacaq prezident seçkilərində iqtidar düşərgəsinin namizədi bəllidir.**

Türkiyənin hazırkı Prezidenti Rəcəb Tayyib Ərdoğan növbəti dönəmdə də ölkəyə rəhbərlik etmək üçün seçki marafonuna qatılacaq. R.T.Ərdoğanın əsas rəqibi 6 müxalifət partiyasının birləşdiyi "Millət ittifaqı"nın prezidentliyə namizədi olacaq. Bu cəbhədə Cümhuriyyət Xalq Partiyasının başqanı Kamal Kılıçdaroğlu, İYİ Partiyanın lideri Meral Akşener, Səadət Partiyasının sədri Temel Karamollaoğlu, Demokrat Partiyasının sədri Gültekin Uysal, Gələcək Partiyasının lideri Əhməd Davudoğlu, Demokratiya və Atılım Partiyasının başqanı Əli Babacan eyni düşərgədə yer alır.

**Qardaş ölkədəki seçkiöncəsi mühiti "Şərq"ə dəyərləndirən Türkiyədə yaşayan araşdırmaçı-jurnalist Dilqəm Əhməd söyləyib ki, əvvəlki illərdə birmənalı olaraq Ərdoğanın qələbə çalacağını deyə bilərdik:** "Amma son bələdiyyə seçkilərində Ankara və İstanbulun itirilməsi, müxalif namizədlərin uğurlu başqanlıq fəaliyyətinə dair alternativləri üzə çıxardı. Aradan ötən müddətdə ölkə iqtisadiyyatının zəifləməsi də AKP hökumətinin əleyhinə çevrilib. Bu baxımdan Ərdoğanın şansı kifayət qədər azalıb. Burada müxalifətin də birliyi önəmli oldu. Altılı masa hələ dağılmayıb və vahid namizəd çıxara biləcəyi görünür. Mənə elə gəlir ki, Ərdoğan vahid namizəd kimi İmamoğlunu istəyir və onu asanlıqla yenə biləcəyini düşünür.

Burada İmamoğlunun HDP ilə münasibətlərindən istifadə ediləcək. Amma biz uzun müddətdir Kılıçdaroğlunun özünün də namizədlik üçün önəmli addımlar atdığını görürük. Yəni CHP içərisində də hələ dəqiq qərar yoxdur. Məncə, Kılıçdaroğlu namizədlikdə dirənsə, İmamoğlu İYİ Partiyaya yaxınlaşacaq. Digər tərəfdən Ankara bələdiyyə başqanı Mansur Yavaşın namizəd olma ehtimalı da qalır. Ola bilər ki, əsas namizəd odur, indidən üzərinə hücumlar olmasın deyə ehtiyatlı davranılır.

Fikrimcə, müxalifətin namizədi altılı masaya aid olmayan, amma populyar bir şəxs olacaq ki, keçid hökuməti qursun".

**Nihat Müzəffər**



# Sumqayıt daha təhlükəsiz şəhər olacaq

## "Ağıllı şəhər" layihəsinin reallaşdırılması əhəmiyyətli hadisədir

**Sumqayıtın "Ağıllı şəhər" konsepsiyası hazırlanacaq.**

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədr müavini İnarə Vəliyevanın sözlərinə görə, pilot layihə üzrə 2023-cü ilin birinci rübündə işlərə başlanılacaq.**

"Ağıllı şəhər" konsepsiyasının 3 istiqamət üzrə həyata keçirilməsi planlaşdırılır. Bunlar parkinq, vayfay, ictimai nəqliyyatda bağlı müəyyən həllərdir", - deyə İ.Vəliyeva bildirib.

**Konsepsiyanı dəyərləndirən millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov Sumqayıtda "Ağıllı şəhər" layihəsinin reallaşmasının ölkəmiz üçün mühüm əhəmiyyətli olacağını deyib**. Onun sözlərinə görə, bu konsepsiya Sumqayıt şəhərinin idarə edilməsi ilə bağlı daha analitik strategiyanın yaradılmasına imkan verir. Bu, eyni zamanda qərarların konkret olaraq şəhərin göstəricilərinə uyğun olaraq verilməsi deməkdir: "Ağıllı şəhər"lərdə yaşayan sakinlər fərqli alətlərdən, internet üzərindən və mobil tətbiqlərdən, portallardan, onlayn platformalardan istifadə etməklə, şəhər idarəetməsi ilə birbaşa əlaqə qururlar. "Ağıllı şəhər"in daha bir üstünlüyü təhlükəsiz icmaların yaradılmasıdır. "Ağıllı şəhər" təhlükəsiz şəhərdir. Bu, birbaşa onunla bağlıdır ki, burada texnologiyalardan ciddi şəkildə istifadə olunur. Bu, texnoloji olaraq cinayətlərin üstünün daha tez və qısa zamanda açılmasına imkan yaradır və şəhəri təhlükəsiz şəhərə çevirir. Ətraf mühitin qorunması baxımından, alternativ enerji mənbələrinin imkanlarından "ağıllı şəhər"lərdə istifadə olunur".

*Millət vəkilinin sözlərinə görə, "Ağıllı şəhər" nəqliyyatın inkişaf etməsinə imkan verir. Dünya təcrübəsində "ağıllı şəhər"lər il ərzində təxminən nəqliyyat sektoruna yönəltdikləri investisiya həcmini 25 faiz artırırlar:* "Bu həm nəqliyyatın tənzimlənməsi, həm də tıxacların aradan qaldırılması baxımından vacibdir. Eyni zamanda rəqəmsal bərabərliyin inkişaf etdirilməsi, yeni iqtisadi inkişaf üçün imkanların yaradılması, yerli və xarici investisiyaların cəlb edilməsinə şəraitin yaranması da layihənin üstünlüklərindəndir. "Ağıllı şəhər" ictimai xidmətlərdə, o cümlədən kommunal xidmətlərdə daha çox səmərəliliyin artırılmasına imkan yaradır".

**Şəymən**

# Moped və skuterlərə hərəkət zolağı verilməlidir

## Alternativ nəqliyyat vasitələri ölkəyə gətirilirsə, onların hərəkəti üçün imkanlar da nəzərə alınmalıdır

**"Bizim "Yol hərəkəti haqqında" qanun köhnədir". Bunu Milli Məclisin dünən keçirilən iclasında deputat Tahir Kərimli deyib. Deputat bildirib ki, artıq skuterlər var: "Bir azdan pilotsuz avtomobillər olacaq ki, onlar barədə də qanunda heç nə yoxdur.**

"Yol hərəkətinin təşkili" ilə bağlı vahid hüquqi aktımız da mövcud deyil. Yol hərəkətinin tənzimlənməsi ilə ciddi məşğul olacaq mərkəz yaradılmalıdır. Hər il Azərbaycanda 1000 nəfər yol qəzalarında həlak olur. Üstəlik, yollarda səsdən insanlar əziyyət, yollarda titrəmələrdən binalar ziyan çəkir. Ona görə də mütləq yol hərəkətinin tənzimlənməsi ilə bağlı mərkəz yaradılmalı, problemləri həll etməli və təkliflər verməlidir".



"Qanunla müəyyənləşməlidir ki, moped və ya velosiped hansı halda deyək ki, avtobus zolağıyla hərəkət edə bilər və ümumiyyətlə, bu nəqliyyat vasitələri avtobus zolağına daxil ola bilərmi?"

Millət vəkilinin toxunduğu məsələ uzun müddətdir müzakirə predmetidir və mütəxəssislər bu haqda rəy bildirirlər. Paytaxtda elektroskuterlərin də, moped adlanan, əslində bildiyimiz motosikletlərin sayı gündən-günə artır, parklanma məntəqələri də çoxalır, ixtisaslaşmış mağazaların vitrinlərini mopedlər, skuterlər bəzəyir. Velosiped həvəskarlarının da sayı çoxalır. Bu nəqliyyat vasitələrinə marağın və ehtiyacın artması hər nə qədər tıxaclarla əlaqələndirilsə də, dövrün dəbi, trendi söyləmək də mümkündür. İllər öncə tankabənzər "cip"lər dəb idi, indi, xüsusən də gənclər skuterlərə, mopedlərə meyl edir. Və bu, zamanla ayaqlaşmaq hesab edilir. Əslində daha yüngül nəqliyyat vasitələrinə keçid edən ölkələr və şəhərlər çoxdur. Sıxlıq yaşanan dünya şəhərlərində kiçiktutumlu, manevr imkanları geniş nəqliyyat vasitələrinin olduğunu görürük. Paytaxtımızda da son zamanlar kiçikhəcmli nəqliyyat vasitələrinə tələbat artıb. Bu, əlbəttə, yaxşıdır. Lakin millət vəkilinin irad bildirdiyi məsələ - qanunvericilik mövcud duruma uyğunlaşdırılsa. Mopedlər və ya skuterlərin iştirakı ilə baş vermiş qəzalara görə qanunvericilikdə hansı cəza nəzərdə tutulur? Məlum deyil. İndi başlayıblar ki, moped idarə etmək üçün sürücülük vəsiqəsi almaq gərəkəcək. Hələ ki, moped sürücüləri sürücülük vəsiqəsindən azaddır. Belə olduğu halda cərimə kimə və necə kəsiləcək? Bütün bu deyilənlər yol hərəkətinin tənzimlənməsi üçün ayrıca mərkəzin yaradılmasını zəruri edirmi?

**Nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli "Şərq"ə açıqlamasında qeyd etdi ki, nəqliyyat vasitələrinin idarə edilməsi üzrə vahid qanunlar toplusu mövcuddur, lakin qanunvericiliyin təkmilləşməsinə ehtiyac var:**

- Nəqliyyat vasitələrinin növləri artırsa, onların hərəkətinin tənzimlənməsi üzrə qanunvericilik də təkmilləşməlidir. Qanunvericilikdə yenilənmə aparılmalı, yeni qanunvericilik aktları hazırlanmalıdır. Mən bu təklifi dəstəkləyirəm. Amma məsələ bununla bitmir. Yeni nəqliyyat vasitələrinin idarə edilməsiylə bağlı qanunvericiliyi təkmilləşdiririksə, onların hərəkətini tənzimləyəcək yol infrastrukturunun qurulması da qanunvericilikdə əksini tapmalıdır. Moped sürücüsünə və ya skuter istifadəçisinə "sən bu yolla hərəkət edə bilməzsən" deyiləcəksə, ona alternativ yol, hərəkət zolağı verilməlidir. Qanunla müəyyənləşməlidir ki, moped və ya velosiped hansı halda deyək ki, avtobus zolağıyla hərəkət edə bilər və ümumiyyətlə, bu nəqliyyat vasitələri avtobus zolağına daxil ola bilərmi? Paytaxtda bəzi küçələrdə velosiped zolaqları çəkilib, indi xüsusi avtobus zolaqlarının çəkilməsinə başlanılıb, bir sıra yollarda xüsusi zolaqlar ayrılır. Lakin bunlar hələ ki, yetərli deyil. Alternativ nəqliyyat vasitələri ölkəyə gətirilirsə, onların hərəkəti üçün imkanlar da olmalıdır. Bu imkanlar yoxdursa, yaradılmayıbsa, qəzalar qaçılmazdır.

**İ.Hüseynli yol hərəkətinin tənzimlənməsiylə məşğul olacaq mərkəzin yaradılmasına isə zərurət görmədiyini dedi:**

- Yol hərəkətinin tənzimlənməsiylə Dövlət Yol Polisi məşğuldur, Bakı Nəqliyyat Agentliyinin İntellektual İdarəetmə Mərkəzi var. Yeni yaradılacaq qurum bu qurumlara paralel olacaq, təxminən eyni işi icra edəcəklərsə, buna ehtiyac yoxdur. Bundansa təkmilləşdiriləcək qanunvericiliyə uyğun olaraq mövcud qurumların səlahiyyətlərini artırmaq, qanunvericilikdən irəli gələcək səlahiyyətləri həmin qurumlara həvalə etmək daha düzgün olar.

**Məlahət Rzayeva**

# Qaynar xəttimiz ermənilərlə "qaynar təmas"a çevrilə bilərmi?

## Azər Həsrət: "Qarabağdakı ermənilər bir qrup dələduzun girovuna çevrilib"



"Kimin hara əli çatır, bir iş görməyə çalışmalıdır"

**Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər üçün Qaynar xətt yaradılıb. Bu barədə Şuşa-Xankəndi yolunda keçirilən dinc aksiyada iştirak edən Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətinin mərkəz rəhbəri Dilarə Əfəndiyeva bildirib. Onun sözlərinə görə, separatçıların yerli sakinlərə təzyiqlərinə baxmayaraq, əvvəlki günlərlə müqayisədə edilən zənglərin sayı əhəmiyyətli dərəcədə artıb:**

"Müraciətlərin çoxluğunu nəzərə alaraq mən və həmkarlarım mərkəzimizdə Qaynar xəttin yaradılması qərarını qəbul etmişik. Biz həmvətənlərimizin müraciətlərinə operativ qaydada cavab verməyə hazırıq. Qaynar xəttimiz belədir: +994702779911. Qarabağ regionunda yaşayanlar arasında bizə müraciət edənlərin məxfiliyini qoruyub saxlayacağımıza öz tərəfimizdən zəmanət veririk". O, dialoqun zəruriliyini də qeyd edib.

**Mühüm təşəbbüslə bağlı "Şərq"ə danışan siyasi şərhçi Azər Həsrət deyib ki, Qarabağdakı erməni əhalimiz üçün Qaynar xəttin təşkili təqdirəlayiqdir. Lakin ekspert bu addımı atmaq üçün gecikdiyimizi vurğulayıb:** "10 noyabr 2020-ci ildə hərbi əməliyyatlar başa çatdıqdan və Rusiya sülhməramlıları ərazimizə yerləşdikdən dərhal sonra Azərbaycan tərəfi vətəndaş təşəbbüslərini gücləndirməli idi. Xüsusən, media, qeyri-hökumət təşkilatları tərəfindən Qarabağdakı erməni əhali ilə təmasların intensivləşməsi üçün əlavə təşəbbüslər ortaya qoyulmalıydı. Təəssüflər olsun ki, biz 2 ili faktiki olaraq fövtə verdik, əldən buraxdıq. Bu istiqamətdə cəhdlər həddindən artıq az olub. O baxımdan sadəcə Qaynar xəttlə işimizi bitmiş hesab etməməliyik. Azərbaycan cəmiyyəti, xüsusən QHT-lər istər birbaşa təmaslarla, istərsə də üçüncü tərəfin, beynəlxalq insan hüquqları təşkilatlarının vasitəçiliyi ilə Qarabağdakı ermənilərlə münasibətləri qurmalıdırlar".

*A.Həsrət qeyd edib ki, Qarabağdakı ermənilər Azərbaycan dövlətinin, nəhayət, gəlib onlara sahib çıxacağını gözləyirlər:* "Cəmiyyətdə birmənalı mövqe var ki, Qarabağdakı bütün ermənilər bölücü, terrorçu, separatçıdır. Elə deyil. Qarabağdakı ermənilər bir qrup dələduzun girovuna çevrilib. Eyni zamanda "sülhməramlı" adı altında bölgəyə yerləşmiş Rusiya işğalçılarının girovudurlar. Qanunlarımız çərçivəsində dinc yaşamağa hazır olan erməniləri separatçılardan və Rusiya sülhməramlılarının girovluğundan azad etməliyik. Bənzər təşəbbüslərin sayını artırmaq lazımdır. Kimin hara əli çatır, bir iş görməyə çalışmalıdır. Jurnalistlərimiz arasında ermənilərlə çox yaxın dost olanlar var. Ancaq onları ortalıqda görmürəm. Zəhmət çəksinlər, ermənilərlə dostluqlarından Azərbaycan dövlətinin faydası üçün istifadə etsinlər. Eləcə də QHT-lərimiz arasında erməni qeyri-hökumət təşkilatları ilə çox yaxından işləyən qurumlar var. Onlar da öz işini qurmalıdır. Düşünürəm ki, tezliklə Rusiya sülhməramlıları bölgəni tərk etmək məcburiyyətində qalacaqlar. Qarabağda insanları qorxu altında saxlayan dələduz qruplaşma da ərazimizdən rədd olub gedəcəklər. Bayrağımız tezliklə Xankəndidə, Xocalıda dalğalanacaq. Bununla da oradakı erməni vətəndaşlarımız, nəhayət ki, 30 ildən sonra normal insan kimi yaşamağa başlayacaqlar".

**İsmayıl Qocayev**

# "Dəfn pulu"nun miqdarına yenidən baxılır

## Razi Nurullayev: "Yaxşı ki, xalqımızın yasda dəftərə pul yazdırmaq ənənəsi var"

**"Pensiyaçılar rəhmətə gedən zaman dəfn üçün dövlət tərəfindən 720 manat ödəniş edilir. Təbii ki, bu məbləğ kifayət deyil, amma yas sahibinə xeyli köməkdir. Yaxşı ki, xalqımızın yasda dəftərə pul yazdırmaq ənənəsi var".**

Bunu Milli Məclisin dünən keçirilən plenar iclasında deputat Razi Nurullayev deyib. Deputat bildirib ki, bir neçə kateqoriya təbəqə var ki, onlara da 300-400 manat dəfn pulu şamil edilir: "Pensiya fonduna kifayət qədər vəsait toplayan şəxs pensiyaya çıxmağına bir neçə ay qalmış rəhmətə gedir, lakin dəfn pulu verilmir. Bu halı sosial yanaşma baxımından qüsurlu hesab edirəm. Pensiya yaşına çatmağa 5 il qalmış şəxslər rəhmətə gedən zaman onların ailəsinə də eyni qaydada, yəni əmək pensiyasının



minimum məbləğinin üç misli həcmində dəfn pulu ödənilməsini təklif edirəm. Əmək pensiyaları haqqında qanuna müvafiq dəyişiklik edilməsi bu sahədə sosial ədaləti bərpa etmiş olardı".

R.Nurullayev qeyd edib ki, bəzi hallarda pensiya fonduna kifayət qədər vəsait toplayan, pensiyaya yenicə çıxan şəxs gözlənilmədən vəfat edir: "Ya da hesabında kifayət qədər yüksək məbləğ olan şəxs heç təqaüd yaşına çatmadan dünyasını dəyişir. İllərlə hesabına yığılmış vəsaiti çox az müddətdə pensiya kimi alan, ya da heç ala bilməyən adam öləndən sonra qalan pul onun ailə üzvlərinə verilmir. Bu da sosial yanaşma və ədalət prinsipi baxımından doğru deyil".

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qeyd edib ki, bu məsələ müzakirə olunur: "Biz aidiyyəti icra qurumları ilə bu məsələni müzakirə edirik. Nəinki pensiya yaşına az qalmış, daha aşağı yaşda vəfat edənlərə də bu dəfn pulunun verilməsini müzakirə edirik".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı



# Gələcək orta məktəblərdən başlayır

## Müəllimlər də valideynlər qədər uşaqlar üçün nümunə modelidir

**Hər bir dövlətin, cəmiyyətin gələcəyini uşaqlar və gənclər müəyyən edir. Bu mənada uşaqların düzgün tərbiyəsi, fiziki və mənəvi inkişafı, savadlı vətəndaş kimi böyüməsi və digər vacib amillər onların gələcəkdə cəmiyyətə inteqrasiyasında önəmli rol oynayır. Psixoloji, mənəvi və fiziki cəhətdən hər bir uşağın sağlam böyüməsi birinci ailədən başlayır. Valideynin övladına düzgün tərbiyə verməsi, onun sağlamlığının qeydinə qalması, düzgün yönləndirməsi vacib amillərdəndir.**

Orta məktəb müəllimləri də ən az valideynlər qədər uşaq və gənclərin düzgün tərbiyə almalarına, gələcəkdə cəmiyyətə sağlam düşüncəli vətəndaş kimi inteqrasiya olunmalarına, onların şəxsiyyətlərinin formalaşmasına, milli ruhda böyümələrinə, təhsilə məsuliyyətlə yanaşmalarına birbaşa cavabdehlik daşıyırlar.

Onların fərdiliyini ümumiliyə çevirməkdə, cəmiyyətə inteqrasiyasında məktəbin rolu danılmazdır. Bu zaman müəllimin pedaqoji ustalığı öz sözünü deyir.

Şagirdin mənəvi tərbiyəsinin bir hissəsini təşkil edən humanist xüsusiyyətlərin ilk ”toxumları” da məktəbdə ”səpilir”. Ona görə də hər bir pedaqoqun qarşısında duran əsas vəzifələrdən biri də şagirdlərə kollektiv fəaliyyətə, cəmiyyətin bir parçası olmağa hazırlamalarıdır.

Təhsil ocaqlarında biz həm şəxsiyyət kimi formalaşır, həm də insani keyfiyyətləri özümüzdə tərbiyə edirik. Amma biz də bu məsələlərdə kimlərisə özümüzə model kimi seçirik. Məsələn, evdə valideynlər - nənə, baba, əmi, dayı və s. ola bilər. Məktəbdə isə yalnız müəllimlərimizi bir nümunəvi obraz kimi seçmək şansımız olur. Deməк ki, oğlan uşaqları atalarından çox, müəllimlərdən vətənpərvərlik, sözübütövlük, qorxmazlıq, dostluq, qoruyuculuq və kişilərə xas olan digər xüsusiyyətləri öyrənirlər. Yəni müəllim də ən az valideynlər qədər uşaqlar üçün nümunə modelidir. Ölkəmizdə isə get-gedə kişi müəllimlərin sayı azalmaqdadır.

Hətta son zamanlar qadın məktəb direktorlarının sayı necə artıb. Yaşlı, təqaüdə çıxmış müəllimləri nəzərə almasaq, məktəblərimizdə, doğrudan da, bu barədə ciddi kadr çatışmazlıqları var. Bu gün şagirdlər üçün nümunə modeli qadın müəllimlərdir. Ən pisi isə odur ki, oğlan şagirdlərin inkişafına da bu nümunə təsir edir. Məktəb təkcə bilik vermir. Həm də tərbiyə verir. Uşaqların əksər davranışları ətrafdakı nümunələrdən formalaşır. Onlar isə nümunə kimi qadın müəllimləri görürlər. Qadın müəllimlərin davranışı oğlan uşaqlarına yansıyır. Uşaq yaşında, yeniyetmə yaşda oğlan uşaqlarının təkcə qadın müəllimlərlə ünsiyyətdə olması onların formalaşan xarakterinə təsir edir. Bu məsələdə məktəblərdə balansı qorumaq lazımdır. Psixoloji aspektdən kişi müəllimlərin təhsildə iştirakı çox vacibdir. Bu, onlarda kişi xarakterinin düzgün formalaşmasına təsir göstərir.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanovanın da dediyi kimi, oğlanların qadın müəllimlər tərəfindən tərbiyəsi xoşagəlməz nəticələrə səbəb olur:** ”Uşaq doğulandan sonra 14 gün ödənişsiz məzuniyyət kişilərə sərf etmir. Kişilərin uşağın tərbiyəsinə münasibəti dəyişməlidir, uşaq təkcə qadına aid deyil. Uşağı birgə böyütmək lazımdır. Məktəblərdə valideyn iclaslarına kişilər, atalar getmir. Bu, aradan qalxmalıdır. Azərbaycanda gender bərabərsizliyi əsasən məktəblərdədir. Məktəblərdə kişi müəllimlər yoxdur. Oğlan uşaqlarının yetişməsində kişi müəllimlərin çox böyük rolu var. Bu gün qadın müəllimlər tərəfindən oğlan uşaqlarının tərbiyə olunması xoşagəlməz nəticələrə səbəb olur”.

**Millət vəkili Tahir Kərimli də kişi müəllimlərin sayının günü-gündən azalmasından narahat olduğunu deyib:** ”Uşaqlarımız bu səbəbdən qız kimi böyüyür. Bəlkə burada problemləri axtaraq? Uşaqlarımız bəzən aqressiya ilə böyüyür. Digər tərəfdən sovet dövrünün təhsil sistemini pisləyirik. Bir tələbə ilə danışırdım, 200 balla qəbul olub. Dedim, bu balı necə toplamısan, qayıdıb deyir ki, cavabları atdım, qəbul oldum. Dörd variant var, biri düz olacaq deyib, yalandan yazır və qəbul olur. Deyirsən, heç olmasa, bir şeir de, deyə bilmir. İndi bunun səbəblərini araşdırmaq lazımdır”.

Təhsil eksperti Nadir İsrafilov isə deyib ki, hazırda ölkənin orta məktəblərində fəaliyyət göstərən ibtidai sinif müəllimlərinin 99 faizini qadınlar təşkil edir. Kişi ibtidai sinif müəllimi demək olar ki, yoxdur. Ayrı-ayrı fənlər üzrə kişi müəllimlərin də sayı qadınlara nisbətən azdır: ”Məktəblərdə kişi müəllimlərin sayının artırılmasına böyük ehtiyac var. Hesab edirəm ki, şagirdlərin, xüsusilə də oğlanların həm kişi, həm də qadın müəllimlərin təsiri altında formalaşması daha doğru olar. Ailədə də uşaq ata zabitəsi və ana mehribanlığı görür. Bu da onların kamil, məsuliyyətli, bir sözlə, əsl

### Təhsilə kişi kadrların cəlbi üçün sistemli addımlar atmaq lazımdır

vətəndaş kimi formalaşmasına kömək edir. Ancaq məktəbdə bu tənasüb gözlənilmir. Elə məktəblər var ki, orada pedaqoji kollektiv yalnız qadınlardan ibarətdir. Hətta idman dərslərini də qadın müəllimlər keçirlər. Belə olan halda da burada təhsil alan şagirdlər ancaq qadınlarla ünsiyyətdə olurlar. Qarşılıqlı ünsiyyətdə onların özünəməxsus çılğınlığını, bəzi hallarda aqressiv münasibətini, əksər hallarda mehribanlığını görürlər və bu da şagirdlərin tərbiyəsinə, məsuliyyətli insan kimi formalaşmasına müəyyən qədər öz mənfi təsirini göstərir. Bütün bu sadalananları nəzərə alaraq mütləq şəkildə məktəblərdə kişi müəllimlərin sayı artırılmalıdır. Qadınların gələcəyimiz olan uşaqları yetişdirmək, tərbiyə etmək, formalaşdırmaq və hər bir gənci xalqa, cəmiyyətə təqdim etmək məqsədilə müəllim peşəsini seçməsi çox müsbət və təqdirəlayiq haldır. Ancaq uşaqların güclü vətənpərvərlik ruhunda böyümələri üçün kişi müəllimlərə də ehtiyac var”.

**Təhsil eksperti Elşən Qafarov ”Şərq”ə açıqlamasında qaldırılan məsələnini kifayət qədər ciddi problem olduğunu deyib:** ”Qadınların ən çox ümumtəhsil məktəblərində çalışdığı ölkə Sloveniya, Slovakiya, Pribaltika idi, ancaq biz son 6 ildə onların hamısını geridə qoyduq və hazırda Azərbaycan 1-ci yerdədir.

Bu məsələ kifayət qədər problemli məsələdir, bunun da sosial və digər səbəbləri var. Hazırda qadınların təhsildə üstünlük təşkil etməsinin əsas səbəbi müəllimlərin maaşının aşağı olmasıdır. İkinci səbəb isə bu gün müəllim işinin ancaq qadınlara aid olması ilə bağlı fikrin formalaşmasıdır. Məktəblərimiz 1990-2000-ci illərin ağır sınağından çıxıb, kişi müəllimlərin çoxu ticarət və digər sektorlara getməli oldu ki, bu da sosial vəziyyətlə bağlıdır. Bu problemi aradan qaldırmaq üçün müəllimin maaşını artırmaq lazımdır. Ən azı indikindən iki dəfə çox olmalıdır. Azərbaycan keçmiş MDB məkanında müəllimlərin ən az əməkhaqqı aldığı ölkələrdən biridir. Eyni zamanda ali məktəblərə, orta ixtisas məktəblərinə qəbul prosesi tənzimlənməlidir. Bu gün istənilən kurs, kişi müəllimlərinə ümumtəhsil məktəblərindən iki dəfə çox əməkhaqqı verir.

Pedaqoji sahəni keçən kişi müəllimlər daha çox kurslarda işləməyə üstünlük verir. Bu gün ümumtəhsil məktəblərində tərbiyə mühiti dağıdılıb, konsepsiya yoxdur. Təhsilə kişi kadrların cəlbi üçün sistemli addımlar atmaq lazımdır. Kişi müəllimlərin təhsilə gəlməsi üçün ilk növbədə məktəblərdə tərbiyə mühitini optimallaşdırmaq lazımdır. Bu sahədə də heç bir iş görülmür”.

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Deputatın təklifini sosioloq dəstəklədi

## Uşaqları cinsi istismara məruz qoyanlar ən ağır şəkildə cəzalandırılmalıdır

**Parlamentin iclasında millət vəkili Tamam Cəfərova təkliflə çıxış edib. Xanım parlamentari uşaqlara qarşı törədilən cinsi istismar hallarına diqqət çəkib. O qeyd edib:**

”Azyaşlılara qarşı olunan istismarı pisləyirəm. Hesab edirəm ki, uşaqları cinsi istismara məruz qoyanlar və pedofillər axtalanmalıdırlar”.

**Bu kimi hallarda insanlara ən sərt cəza seçilməli olduğunu deyən sosioloq-alim Əhməd Qəşəmoğlu ”Şərq”ə açıqlamasında vurğulayıb ki, bu təkcə cinsi istismara məruz qalmış şəxsin deyil, bütün Azərbaycan xalqının problemidir:** ”Son zamanlarda xaotik bir vəziyyət yaranıb. Bu səbəblə də cəmiyyətdə belə insanların sayı artıb. Problemlərin həlli üçün maarifləndirmə və inzibati cəzalar paralel olmalıdır.

Çünki yalnız maarifləndirmə ilə nəyisə həll etmək mümkün deyil. Ona görə də bu cür şəxslərə qarşı ən sərt cəzalar seçilməlidir ki, cəmiyyətin digər nümayəndələrinə görk olsun.

Həmçinin ictimai qınağı gücləndirmək və cinsi istismar edən şəxsləri yaşadığı ərazilərdən biabırçı şəkildə qovmaq lazımdır.

Digər tərəfdən həmin ərazidə də profilaktik işlər aparılmalıdır. Çünki ola bilsin ki, həmin ərazidəki insanlar arasında psixoloji problemlər yaranıb. Tamam xanımın dediyi metoddan isə Çində və digər ölkələrdə istifadə olunub.

Amma indiki dövrdə bunun beynəlxalq aləmdə necə qarşılanacağı müəmmalıdır. Ümumilikdə cəzalar sərt olmalıdır. Cəzanın necə olmağını dəqiqləşdirmək isə hüquq-mühafizə orqanlarının işidir”.

**Nihat Müzəffər**

# Aksiya iştirakçıları ictimai xüsusi təyinatlılardır

## Zahid Oruc: “12 dekabr Qarabağ ermənilərinin mühasirəsi yox, Azərbaycanın suverenliyi altında yaşamağa başladıqları gündür”




**“Azərbacanlıların Xankəndiyə silahsız daxil olması düşmən obrazı ilə qorxudulan yerli ermənilərin də xilasına xidmət edir”. Bu barədə millət vəkili Zahid Oruc deyib. Deputat bildirib ki, Xankəndi-Şuşa yolunda başlayan dinc hərəkat müasir Azərbaycan tarixinin parlaq səhifəsidir:**

”Əslində silahsız aksiya 44 günlük müharibənin davamıdır, 10 noyabr 2020-ci ildə Xankəndiyə doğru gedən əsgərlərin qardaş və bacılarının tanksız-topsuz əməliyyatıdır. Əgər ”Qızılbulaq” və ”Dəmirli” yataqlarına sülhlə deyil, hərbi vasitələrlə hücum edilsəydi, 12-14 sentyabrdan başlayan beynəlxalq təzyiqlər daha da artacaqdı. Düşmən bizi səngərdə gözləyirdi. İrəvanda, Parisdə və onlarla ölkədə Qarabağ ermənilərinə silahlı soyqırım edəcək dövlətə qarşı sanksiyalar öncədən hazırlanmışdı. Lakin İlham Əliyev dinc vasitələrdən - yumşaq gücdən istifadə etdi. Ona görə də çətin hava şəraitində 4 gündür fədakarlıq göstərən mətbuat, vətəndaş cəmiyyəti və ictimai fəallar gerçək silahsız xüsusi təyinatlılardır. Son aksiyaların nəticələri nə oldu? Birincisi, beynəlxalq ictimaiyyətdən ”soyqırım və etnik təmizləmə” adı ilə siyasi, maddi və mənəvi yardım istəyən Ermənistan arzu etdiyi faktları tapmadığı üçün dəstək qazana bilmədi və kəskin siyasi parçalanmaya məruz qaldı. Dünən Azərbaycan xarici işlər naziri dövlətimizin Xankəndiyə humanitar və iqtisadi yardıma hazır olduğunu bildirdi. Ermənilərlə birgəyaşayış üçün hökumətin reinteqrasiya proqramının elan olunması dövlətimizin mövqeyini gücləndirdi”.

**Z.Oruc vurğulayıb ki, humanitar fəlakət, xəstələrin yardımdan məhrum edilməsi, uşaqlara qarşı qəddarlıqla bağlı ənənəvi cəfakeş obrazı və digər anti-Azərbaycan təbliğatı keçmədi:** ”4 gündür Xankəndidə qeyri-təbii ölüm faktları qeydə alınmayıb, əksinə, Ermənistan və dünya erməniçiliyi əlini çəkən kimi Qarabağa əminamanlıq və dinclik gəlib. Biz dünyaya bəyan etməliyik ki, İrəvana getmək istəyən Xankəndi sakinləri tək bir Laçın yolundan asılı deyillər, 1007 km sərhədin istənilən yerindən gəlib keçə bilərlər. Son aksiyalar 30 illik işğalın sadə, əliyalın və ehtiyac içərisində yaşayan ermənilərdən çox, torpaqları istismar edən cinayətkar dəstələr, oliqarx məmurlar, hərbi rejim təmsilçiləri və qızıl-mis sümürgənlərini üzə çıxardı. Azərbaycanlıların Xankəndiyə silahsız daxil olması cinayət törətməyən, lakin uzun illər xalqımızın düşmən obrazı ilə qorxudulan yerli ermənilərin də xilasına xidmət edir. Aksiya nəticəsində separatizmin maliyyə mənbələrinə böyük zərbə dəydi. Xatırladaq ki, Qarabağın büdcəsinin 35 faizi təkcə ”Qızılbulaq” və ”Dəmirli” yataqlarından formalaşır”.

**Parlament üzvü qeyd edib ki, Azərbaycan Laçın yolundan keçən bütün nəqliyyat vasitələrinin sayını yaxşı bilir:** ”Təcili-tibbi maşınların aylıq intensivliyi 5-ə çatmır. Ona görə də dinc aksiyalar nəticə verəcəkdir-Xankəndi, Xocalı və Şuşa kəndlərinə azərbaycanlıların qayıtması, Laçın yoluna alternativ 32-km-lik yolun son nöqtəsində gömrük məntəqəsinin qoyulması, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın 30 illik blokadadan çıxması Xankəndidə və regionda sülhün və təhlükəsizliyin tək şərtidir. 12 dekabr Qarabağ ermənilərinin mühasirəsi yox, Azərbaycanın suverenliyi altında yaşamağa başladıqları gündür”.

**İsmayıl**




# Milyardlarla gəlirlər xaricə axır

## Bəzi dövlətlər tiktoku bağlamaqla kommersiya maraqlarını qoruyurlar

**ABŞ Senatı məmurlara Çinin tiktok tətbiqindən hökumətə məxsus cihazlarda istifadə etməyi qadağan edən qanun layihəsini qəbul edib.**

Qərar yekdilliklə qəbul edilib, indi o, Nümayəndələr Palatası və ABŞ Prezidenti Co Bayden tərəfindən təsdiqlənməlidir.

Qeyd edək ki, Çinin yaratdığı tiktok platforması bu ölkənin özündə ciddi qadağa altındadır. Çin öz uşaqlarını bu platformadan qoruyur. Çin hökuməti uşaq və yeniyetmələrin tiktoka girməsinə birbaşa nəzarət edir və 15 yaşdan aşağı uşaqların gündə cəmi 40-45 dəqiqə bu platformaya çıxışı var.

Hindistanda isə tiktok ümumiyyətlə, açılmayıb.

Pakistan, Dubay, Səudiyyə Ərəbistanı, böyük müsəlman dövlətləri, eləcə də Yaponiyada tiktoka ancaq xüsusi VPN vasitəsilə daxil olmaq mümkündür.

Yəni ABŞ Senatının tiktok tətbiqini qadağan etməsi səbəb deyil, dünyanın bir çox ölkələri zaman-zaman tiktokla bağlı narahatlıqlarını bildirir.

**İKT eksperti Tural Məmmədlinin “Şərq”ə açıqlamasına görə, tiktokun bağlanması ilə bağlı qərar ölkələrin siyasətindən asılıdır:** ”Dövlətlərin bu istiqamətdə kommersiya maraqları var. Diqqət yetirsəniz, Çində heç bir iri biznes xarakterli sosial şəbəkələr, nə yutub, nə feysbuk var. Lakin onların özlərinin hər istiqamət üzrə internet resursları var ki, bu da onlara ölkə daxilində milyardlarla gəlir gətirir. Əgər Çində adı sadalanan sosial şəbəkələr olsaydı, onların qazandıqları bu pullar Çindən axacaqdı. Eyniylə başqa dövlətlər tiktoku bağlamaqla şəxsi kommersiya maraqlarını qoruyurlar. Onlar bəzi hallarda deyə bilərlər ki, şəxsi məlumatların gizliliyi məsələsində problemlər yaradır. Həmçinin tiktokun da alqoritmi elə qurulub ki, daha çox qalmaqallı və nifrət doğuran paylaşımları ”kəşfet”ə salır. O baxımdan da bir çox ölkələr tiktoku cəmiyyət üçün təhlükəli hesab edir”.

**Şəymən**

# Qorxuyla tərbiyə etmək çox uzaq dövrdə qalıb

## “Müəllim bilməlidir ki, uşaq şiddət gördükcə daha da aqressiv davranışlar sərgiləməyə başlayacaq”

**Sosial şəbəkələrdə paytaxtın Suraxanı rayonu 146 nömrəli tam orta məktəbin 8-ci sinfinin ingilis dili dərsində müəllimin şagirdi döydüyü barədə videogörüntülər yayılıb.**

Sinif yoldaşları və məktəb direktorunun sözlərinə görə, döyülən şagird dəfələrlə qeyri-etik davranışlar edib. Valideynlərinə xəbərdarlıq edilsə də, nəticə olmayıb. Bu dəfə isə müəllim Kazım Canıyev hövsələdən çıxıb. 30 il bu məktəbdə işləyən müəllim işdən azad olunub.

**Klinik-psixoloq Narınc Rüstəmova məktəblinin şiddət görməsinin psixoloji tərəflərindən danışıb.**

Onun sözlərinə görə, şagirdin müəllim tərəfindən şiddətə uğraması məktəb etikası baxımından düzgün deyil: ”Şiddət göstərən hər hansı müəllimdən biz bunu soruşsaq və ya hərəkətini izah etməyi tələb etsək, o özünə ”Biz də məktəbli olmuşuq və müəllim bizdə də hər hansı məktəbə uyğun olmayan davranış gördükdə bizi danlayıb, hətta döyüb. O zaman nə biz nə da, valideynimiz həmin müəllimə heç nə deməyib” kimi cümlələrlə haqq qazandırmağa çalışacaq. Lakin burada kiçik bir nüans var ki, 10, yaxud 20 il öncə doğulan uşaqların psixikası ilə hazırda belə desək, ”texnologiya əsrində” doğulan və böyüyən uşaqların psixikası eyni deyil. Əslində pedaqoqların özü də psixoloji və pedaqoji biliklərə dərindən yiyələnməli və daha sonra bu sahədə işləməyə başlamalıdır.

Dünya təhsil sisteminə nəzər yetirsək görərik ki, İQ səviyyəsi ən yüksək pedaqoqlar, müəllimlər məhz Finlandiyadadır. Əhalisi 5 milyon olsa da, Finlandiya istər təhsil və təcrübə sisteminə görə, istərsə də üstün zəkalı insanların say çoxluğuna görə dünyada statistikaya görə ilk yerdədir. Hətta Finlandiyada bakalavr təhsilini tamamlayan ixtisaslı müəllim dövlət tərəfindən işlə təmin edilmir. O müəllim, magistr dərəcəsi qazanmalı və təcrübə proqramlarında iştirak etməli, həftədə 2 saat akademik olaraq özünü inkişaf etdirib daha da təkmilləşdikdən sonra məktəbdə dərs deyə bilər. Belə halda müəllim uşaqla daha asan şəkildə ünsiyyət qura və ona özgüvənli şəkildə böyüməsinin yollarını kəşf etməyi aşılaya bilər”.





“Çətin tərbiyə olunan uşaqlar məktəb psixoloqu tərəfindən aşkarlanmalı, onlarla fərdi şəkildə görüşməli və mütəmadi olaraq iş aparılmalıdır”

Yeniyetməlik dönəmində uşaqların aqressiv və gərgin olduğunu vurğulayan psixoloqun sözlərinə görə, uşaqlar bəzən evdə də valideynlərə qarşı aqressiya nümayiş etdirirlər. Belə hallar təbii ki, məktəb dönəmində, həmyaşıdları, sinif yoldaşları və hətta müəllimləri ilə münasibətində də müşahidə edilir: ”Dərsə hazırlıqsız gəlmək, dərs prosesində danışmaq, müəllimə aqressiv cavablar vermək, yoldaşlarına qarşı kobud hərəkətlər etmək və s. kimi hallar son dövrlər məktəb şagirdlərində də müşahidə edilir. Belə olduqda, yəni hörmətsizlik edildikdə müəllim də çıxılmaz vəziyyətdə qalır və bəzən səbirsiz davranıb uşağa qarşı şiddət göstərir. Nəzərə alsaq ki, o uşaqların 12-13 yaşı var, bu halda müəllimlər səbirli, təmkinli davranmağı bacarmalıdır. Çünki müəllimlərin ən müsbət keyfiyyətlərindən biri də şagirdlərə qarşı anlayışla, səbrlə davranmaqdır, onlarla emosional bağ qurmaqdır. Belə olduqda uşaq da müəllimə hörmət etməklə bərabər, həm də onu sevməyə başlayacaqdır. Əksinə, müəllimlər ana-ata obrazı ilə çıxış edərsə, bu zaman onların yeniyetmə bir uşaqla dil tapması, bağ qurması çox çətin olacaq. Çünki yeniyetmələr və onların ozamankı psixologiyası ana-atasını qəbul edə bilmir və onlarda davranışları ilə bağlı verilən məsləhətlər qıcıq hissi yaradır. Ona görə də müəllimlər elə münasibət qurmağa çalışmalıdır ki, sanki onların yaşıdı təəssüratı bağışlasın. Bəzən yaxşı olar ki, müəllim hətta dərsin 5-10 dəqiqəsini onların problemlərinə ayırsın. Çünki yeniyetmənin birinci marağı nəinki dərslə bağlı olur, həm də sosial status qazanmaqla bağlı olur. Müəllim nə qədər aqressiv və sanki ana-ata rolunda çıxış edərsə, yeniyetmə şagird də ona əks davranmağa, hərəkətlər etməyə bir o qədər meyilli olar. Artıq bu zaman anlaşılmazlıqlar meydana çıxacaq, şagird-müəllim münasibətləri pisləşməyə doğru yönələcək və müəllim şiddətə baş vuracaq. Müəllim bilməlidir ki, uşaq şiddət gördükcə daha da aqressiv davranışlar sərgiləməyə başlayacaq. Bu, məsələnin həlli yolu deyil və qorxuyla tərbiyə etmək çox uzaq dövrdə qalıb”.

**N.Rüstəmovanın sözlərinə görə, çətin tərbiyə olunan uşaqlar məktəb psixoloqu tərəfindən aşkarlanmalı, onlarla fərdi şəkildə görüşməli və mütəmadi olaraq iş aparılmalıdır.** Əgər psixoloqlar bu işdə çətinlik çəkirlərsə, məktəb rəhbərliyinə bu haqda bildirməli və lazım gələrsə, başqa psixoloq həmkarları ilə vəziyyəti müzakirə etməli, məsləhətləşməlidirlər: ”Bunlar da məsələnin həllində fayda vermirsə və ya fiziki cəhətdən məktəb psixoloqunun gücü həmin uşaqlara yetmirsə, zaman olaraq həmin uşaqlarla işləməyi çatdıra bilmirsə, onlar xüsusi seçilərək başqa psixoloqa yönləndirilməlidir. Bu gün aqressivlik nümayiş etdirən, müəlliminə, sinif yoldaşına qarşı uyğunsuz davranışlar sərgiləyən, şiddət görən uşaqlar gələcəyin davranış pozuntusu olan şəxsiyyəti olacaq. Biz psixoloqlar buna ”sosiopat insanlar”deyirik. Yəni belə uşaqlarda zərərli vərdişlər olur, davamlı problemlər yaşayırlar, həmçinin indi aldığı şiddəti gələcəkdə həyat yoldaşına, övladına qarşı nümayiş etdirən şəxsiyyətə çevrilirlər. Şiddət görən uşaq daxilindəki aqressiyanı bu gün müəllimə cavab verərək çıxara bilmirsə, gələcəkdə bu aqressiyasını ətrafındakılardan və ya özündən daha zəif insanlardan daha şiddətli çıxaracaq. Artıq belə davranış pozuntulu şəxslər bir müddət sonra insanlara zərər verməkdən zövq alacaq vəziyyətə gələ bilirlər. Ona görə maksimum dərəcədə şiddətdən və şiddət göstərəcək davranışlar sərgiləməkdən qaçmalıyıq. Şiddət heç vaxt düzgün çıxış yolu deyil”.

**Şəymən**



# Təqaüdçülər üçün ən rahat şəhərlər seçildi

## 10 şəhər arasında Türkiyənin Adanası ön yerlərdə qərarlaşıb

*(Əvvəli səh.8)*

**Burada yaşamağın qiyməti Berlindən təxminən üçdə iki, kirayələr isə 90 faiz aşağıdır. Bundan əlavə, səhiyyə sistemi və iqlimi yüksək qiymətləndirilir. Adana seçkilərdə iştirak edən Antalyadan daha çox səs toplayan Türkiyə şəhəri olub.**

**5. Batumi, Gürcüstan**

172 min insanın yaşadığı Batumi yüksək hava keyfiyyəti və aşağı cinayət nisbəti ilə 77,9 bal toplayaraq 5-ci yerdə qərarlaşıb.

**4. Qingdao, Çin**

Pekin və ya Şanxay qədər məşhur olmasa da, Qingdao 4 milyondan az əhali ilə 78,3 bal toplayıb və keçən ilki 4-cü yerini qoruyub.

**3. Mangaluru, Hindistan**

500 mindən az insanın yaşadığı Mangaluru, Hindistanın qəhvə ixracatının yüzdə 75-ni tək başına qarşılayan bir şəhər olaraq diqqət çəkir.

Alman təqaüdçü maaşının 65-90 faizini xərcləməklə Berlində olan yaşayış səviyyəsini burada da qoruya bilər.

**2. Manizales, Kolumbiya**

Siyahıya ilk dəfə daxil olan Manizales qəhvə ixracı və 400 mindən aşağı əhalisi ilə də diqqət çəkir. Manizales 78,7 bal toplayıb.

**1. Trebinye, Bosniya və Herseqovina**

Siyahının başında 81 xalla Bosniya və Herseqovinanın Trebinye şəhəri qərarlaşıb.

Cəmi 30 min insanın yaşadığı şəhərdə tarixi katolik kilsəsi, pravoslav monastırı və məscid də var.

Orta alman təqaüdçüsü maaşının yalnız 55 faizini xərcləyərək, Berlindəki yaşayış səviyyəsini Trebinyedə saxlaya bilir.

**Turan**

# Uçot dərəcəsini artırmağın heç bir təsiri yoxdur

## Əgər Mərkəzi Bank bütün kommersiya banklarına kredit verərsə, bu, effektiv olardı



**Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti (İH) uçot dərəcəsinin 0,25 faiz bəndi artırılaraq 8 faizdən 8,25 faizə qaldırılması barədə qərar qəbul edib.**

Faiz dəhlizinin aşağı həddi 1,25 faiz bəndi artırılaraq 6,25 faizə, yuxarı həddi isə yenə də 9,25 faizə müəyyən olunub.

”Faiz dəhlizinin eninin daraldılması qərarı bu ilin avqust ayında pul siyasətinin yeni əməliyyat çərçivəsinin tətbiqi ilə bağlı qabaqlayıcı açıqlamalara uyğun verilib. Bu qərar, eyni zamanda faktiki göstəricilər və yenilənmiş makroiqtisadi proqnozlara əsaslanır”, - deyə AMB bəyan edib.

**Mərkəzi Bankın uçot dərəcəsinin onun banklara verdiyi faiz dərəcəsi olduğunu deyən bank məsələləri üzrə ekspert, iqtisadçı Əkrəm Həsənov ”Şərq”ə bildirib ki, faiz dərəcəsinin artırılması Mərkəzi Bankın inflyasiya ilə mübarizə aparması deməkdir:** ”Sözügedən faiz dərəcəsi ilə AMB kommersiya banklarına kredit verir. Bu faizdə artımın olması isə kommersiya banklarının əhaliyə və sahibkarlara daha bahalı kredit verməsi deməkdir. Kredit faizi artığı üçün isə iqtisadi aktivlik azalır. Bu isə qiymət artımının qarşısını alır. Nəzəriyyədə və aparıcı xarici təcrübədə bu belədir. Lakin Azərbaycanda bu mexanizm işləmir. Yəni bizdə faizin qalxıb-düşməsinin heç nəyə təsiri yoxdur. Çünki AMB həmin faiz dərəcəsi ilə çox az banka kredit verir. Bütün kommersiya banklarına kredit verilmədiyi üçün isə heç bir təsir olmur. Bu günlərdə ABŞ-nin də Federal Ehtiyat Sistemi faiz dərəcəsinin artırdı. Orada bütün banklara kredit verildiyi üçün bahalaşma oldu. Bizdə isə ümumiyyətlə, hələ 10 il öncə Mərkəzi Bankın faiz dərəcəsi 2-3 idi. Ancaq o zaman da kommersiya banklarının kredit faizləri indikindən çox idi. Bu baxımdan da artımın heç bir təsiri yoxdur və formaldır. Əgər Mərkəzi Bank bütün kommersiya banklarına kredit verərsə, bu, effektiv olardı. Bununla isə Mərkəzi Bank, sadəcə, inflyasiya ilə mübarizə apardığını göstərməyə çalışır”.

**Nihat**

# Sabunçu sakinlərinə şad xəbər

## “Aztelekom”un xidmətləri ilə təmin olunacaqlar

**“Azərbaycanda GPON (red.Qiqabit tutumlu passiv optik şəbəkə) texnologiyası əsasında sürətli və kəsintisiz fiber-optik şəbəkənin qurulması ”Onlayn Azərbaycan” layihəsi çərçivəsində həyata keçirilir”.**

Bu barədə ”Aztelekom” MMC-dən ”Şərq”in sorğusuna cavab olaraq deyilib.

Qurumdan bildirilib ki, bu layihənin əsas məqsədi 2024-cü ilin sonunadək bütün ölkə ərazisinin GPON və digər genişzolaqlı texnologiyalar əsasında sürətli internetlə təmin edilməsidir: ”Sabunçu rayonu, Şəhər şosesi küçəsi, döngə 5 ünvanında fiber-optik kabelləşmə işləri gedir. 2023-cü ilin əvvəllərində GPON layihə üzrə tamamlanma işləri başa çatdırılacaq və həmin ərazidə yaşayan vətəndaşlar ”Aztelekom”un xidmətləri ilə təmin olunacaqlar”.

*Qeyd edək ki, dekabrın 14-də redaksiyamıza şikayət daxil olub. Sabunçu qəsəbəsi, Şəhər şosesi küçəsi ünvanında yaşayan sakin evlərində 6 ildir telefon xətti olmadığını vurğulayıb.*

**Aygün**

# "Dağlıq Qarabağın geologiyası və faydalı qazıntıları"

## Professor Cəbrayıl Azadəliyevin kitabı gürcü dilində çap olunub






**Tbilisinin ”Universal” nəşriyyatında AMEA Geologiya və Geofizika İnstitutunun əməkdaşı, geologiya-mineralogiya elmləri doktoru, BDU-nun ”Faydalı qazıntılar” kafedrasının professoru Azadəliyev Cəbrayıl Əbdüləli oğlunun ”Dağlıq Qarabağın geologiyası və faydalı qazıntıları” kitabı-monoqrafiyası gürcü dilində çap olunub.**

Əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti (2013-2019), Azərbaycan Geoloqlarının Milli Komitəsinin prezidenti, Qafqaz regional idarələrarası stratiqrafik komissiyanın sədri, AR Prezidenti yanında Elmin İnkişafı Fondunun və AR Dövlət Neft Şirkətinin Elm Fondunun Himayədarlar şurasının üzvü, AR Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının sədri akademik Akif Əlizadənin rəhbərliyi altında çalışıb və öz elmi tədqiqatlarını aparıb.

**Təqdim olunmuş monoqarafiyada mürəkkəb geoloji quruluşu və zəngin yeraltı sərvətləri olan Dağlıq Qarabağın strukturasında geoloji-tektonik mövqeyi, struktur-formasion zonalar üzrə antiklinorilərin, sinklinorilərin, köndələn çökəklərin, qalxıntıların quruluşu tədqiq olunub.**

Monoqrafiyada Kiçik Qafqaz regionunun Azərbaycan Respublikası hissəsində (Naxçıvan Respublikası istisna olunmaqla) yerləşən faydalı qazıntı yataqları, onların geologiyası, genezisi ilə yanaşı faydalı qazıntı kütləsinin ehtiyatı haqqında məlumatlar öz əksini tapıb. Ümumulikdə monoqrafiya ”Dağlıq Qarabağın geologiyası və faydalı qazıntıları” kitabı nəzəri və təcrübi əhəmiyyət kəsb edən elmi əsər hesab olunur.

C.Ə.Azadəliyevin Kiçik Qafqazın Lok-Qarabağ və Göyçə-Həkərə struktur formasion zonalarında mövcud olan filiz və qeyri-filiz faydalı qazıntı yataqlarını öyrənmək məqsədilə uzun illər ərzində apardığı genişmiqyaslı kompleks tədqiqatların müsbət dalğası Naxçıvan Muxtar Respublikasından yan keçməyib. O, 1971-1990-cı illərdə Araz və Misxana-Zəngəzur struktur-formasion zonaları hüdudlarında Naxçıvan MR-in cənub-şərqində Ketam-Kilitdən başlayaraq şi-mal-qərbində Batabata qədər geniş dağlıq ərazidə Azərbaycan MEA Geologiya İnstitutunun xətti ilə genişmiqyaslı elmi-tədqiqat işləri apararaq, müxtəlif genetik tiplərə mənsub filiz faydalı qazıntı yataqlarını və onların tipomorf əlamətlərini öyrənərək, birbaşa axtarış kriterilərini işləyib ha-zırlayıb, eyni zamanda regionun müxtəlif sahələrinin faydalı qazıntılar üzrə perspektivli olmasını müəyyən edib. Sırf Naxçıvan MR ərazisində aparılmış kompleks tədqiqatlarının nəticələri müəllifin 60-dan çox elmi əsərində və ”Naxçıvan MR-nin endogen yataqlarında metasomatoz və filizləşmə məsələləri” (rus dilində) irihəcmli monoqrafiyasında çap olunub.

Hələ 1950-ci illərin sonunda Akademik Mirəli Qaşqay Universitetdə kafedra müdiri olaraq C.Azadəliyevin çöl işlərində bilik və bacarığına diplomantın işinə rəhbərlik etdiyi vaxtdan yaxşı bələd idi.

Təhsil vaxtı istehsalat praktikası və diplomqabağı praktika vərdişi, səriştəsi və praktiki bilik qazanmaq baxımından tələbə Azadəliyevin gələcək fəaliyyətinə çox faydalı töhfələr verib. 1957-ci ildə tələbə olan C.Azadəliyev istehsalat praktikasını Gürcüstan SSR Dmanisi rayonunun Ma-mula-Sopeli kəndi ərazisində mismolibden yatağında axtarış-geoloji syomka və axtarış-kəşfiyyat işləri aparan axtarış-kəşfiyyat partiyasının tərkibində keçirərkən dağ-qazıma işlərinin (mağaraların, buruq quyularının, şurfların, xəndəklərin və s.) yerlərinin seçilməsi və onların sənədləşdirilməsi qaydaları, kernlərin mineraloji təsviri və mineral assosiasiyalarının araşdırılması, eləcə də 25.000 və 10.000 miqyaslı geoloji xəritəçəkmə və axtarış işləri aparmaq, proqnoz xəritələri tərtib etmək istiqamətində sərbəst çöl işləri aparmaq səriştəsinə və bacarığına mükəmməl dərəcədə nail olmaq imkanı qazanıb. Elə bu zamandan onu Gürcüstan alimləri tanıyıb və daimi elmi yolunu izləyiblər.

300-dən çox elmi əsərin, o cümlədən 5 monoqrafiya, dərsliklərin, dərs vəsaitlərinin, eləcə də bakalavrlar və magistrantlar üçün tədris proqramlarının müəllifidir. 25 elmi hesabatın, o cümlədən 10 təsərrüfat müqaviləli işin elmi rəhbəri və məsul icraçısı olub. ”Azərbaycanın geologiyası” çoxcildiyinin (rus dilində) VI cildinin (2003, 2005) redaksiya heyətinin üzvü, ”Azərbaycanın geologiyası” III cildliyində (2015) ”Bərk faydalı qazıntılar” bölməsinin müəllifi olub.

**Elan**

Nəcəfzadə İlkin Tahir oğluna Ədliyyə Nazirliyi Tibb Baş idarəsi tərəfindən verilmiş TX 0932 saylı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC
1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3642



# İki qadınla yaşayan Ronaldinyo

## Anası deyir ki, qızımı aldadıblar

**Prissilla Koelyo və Beatriz Souza adlı iki qadınla eyni evdə yaşayan əfsanəvi futbolçu Ronaldinyo ilə bağlı yeni iddialar ortaya atılıb.**

Prissillanın anası Maria Aldenice dos Santos övladının aldadıldığını vurğulayaraq qızının yalnız keçmiş aktrisaya olan böyük sevgisinə görə başqa qadınla eyni evdə yaşamağa razılaşdığını bildirib.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, 2015-ci ildə təqaüdə çıxan əfsanəvi futbolçu Ronaldinyo Prissilla Koelyo və Beatriz Souza adlı iki qadınla yaşamağa davam edir.

Prissillanın anası Maria Aldenice dos Santos Rio-de-Janeyrodakı 5 milyon funt sterlinqlik malikanəsində yaşayan Ronaldinyo haqqında danışıb.

Maria Ronaldinyonun yanında olan qızının ailəsini utandırdığını və qızının yalnız keçmiş aktrisaya olan böyük sevgisinə görə başqa qadınla eyni evdə yaşamağa razı olduğunu vurğulayıb.

Ronaldinyonun iki qadınla yaşadığını ilk dəfə qızından öyrəndiyini deyən Maria eşitdiklərindən şoka düşsə də, bu məsələnin qarşısını ala bilməyib.

Maria "The Mirror"a danışıb: "Prissilla və Beatriz üçün Ronaldinyonun iki ayrı yataq otağı var idi. Onlar heç vaxt eyni çarpayıda birlikdə olmayıblar. O, bir gün Prissilla ilə yatıb, digər gün isə Beatrizlə gecələyib. Bir dəfə hər ikisinə "Rolex" saatı hədiyyə edib".

**Turan**



# Təqaüdçülər üçün ən rahat şəhərlər seçildi

## 10 şəhər arasında Türkiyənin Adanası da ön yerlərdə qərarlaşıb

**Almaniyada nəşr olunan "Focus Magazine" jurnalı dünya miqyasında araşdırma aparıb. Araşdırmada dünyanın müxtəlif ölkələri arasında təqaüdçülərin ən rahat yaşaya bildiyi 10 şəhər seçilib. Türkiyənin Adana şəhəri də siyahıda yer alan şəhərlərin başında olub.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, "Focus Magazine"in araşdırmasında 799 ölkə pensiyaçılar üçün sağlamlıq xidmətləri və təhlükəsizlik kimi kriteriyalar əsasında qiymətləndirilib.

**10. Osiyek, Xorvatiya**

Osiyek şəhəri Macarıstan və Serbiya ilə həmsərhəddir və Almaniyaya yaxınlığını nəzərə alaraq 75,3 balla 10-cu yeri tutub.

**9. Koimbra, Portuqaliya**

143 min insanın yaşadığı Koimbra, 75,6 balla mükəmməl sağlamlıq sistemi və Aralıq dənizi iqlimi ilə təqaüdçülər üçün yaşana bilən şəhərlər arasındadır.

**8. Meknes, Mərakeş**

600 min insanın yaşadığı Meknes, digər Afrika ölkələrindən fərqli olaraq daha yaşana bilən iqlimi ilə təqaüdçülərin diqqətini çəkir və 76,2 balla 8-ci yerdədir.

**7. Da Nang, Vyetnam**

Digər Asiya şəhərlərindən fərqli olaraq 1 milyondan az əhalisi ilə diqqət çəkən Da Nang keçən il 14-cü olduğu halda, 77 xalla bu dəfə 7-ci yerdə qərarlaşıb.

**6. Adana, Türkiyə**

Türkiyə siyahıya Adana ilə birlikdə daxil olub. 6-cı sırada yer alan Adana üçün aşağıdakı qiymətləndirmə aparılıb:

"Adana bu il ilk 10-luğa daxil olan iki yeni şəhərdən biridir. 2,2 milyon əhalisi ilə Türkiyənin 5-ci ən böyük şəhəri ölkənin şərqində, Aralıq dənizi sahillərindən bir qədər içəridə yerləşir. Kənd təsərrüfatı əhəmiyyətli ərazinin ortasındadır. Böyük universitetlərdən biri də burada yerləşir".



Roma dövrünə aid bir neçə tarixi məscid və tikili şəhəri turistlər üçün maraqlı edir. Frankfurtdan təxminən 2500 kilometr aralıdadır. Adana reytinqdə ən ucuz şəhərlərdən biridir.

**Turan**

*(Davamı səh.7)*



# Azərbaycanda virus yayılır

## Bəzi uşaqlar risk altındadır

**Hazırda ölkədə mövsümi kəskin respirator virus infeksiyasına yoluxma hallarına rast gəlinir. Eyni vəziyyət bizi əhatə edən ölkələrdə də müşahidə olunur.**

Xəstəliyin əksər hallarda yüngül keçməsi, əhalinin həkimə müraciət etməməsi və qeydiyyata alınmaması səbəbindən dəqiq statistika yoxdur.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim-infeksionist Təyyar Eyvazov Publika.az-a qrip virusunun təhlükəsi ilə bağlı danışarkən deyib.

"Bir sıra mütəxəssis-ekspertlərin fikrincə, yoluxma hallarının səviyyəsi yanvar ayında azalmağa doğru gedəcək. Xəstəliyin simptomları hərarətin yüksəlməsi, ümumi zəiflik, baş, əzələ, boğaz ağrısı, burun tutulması və ya axması və s. törədicinin növündən asılı olaraq müəyyən qədər fərqlənə bilər, lakin diaqnozun yalnız laborator təsdiqi mümkündür. Mövsümi qrip və respirator virus infeksiyaları üçün fəsadlı gedişin risk qrupuna 5 yaşadək uşaqlar da daxildir. Xüsusən müxtəlif xroniki xəstəliyi olan immundefisitli uşaqlar risk altındadırlar. Valideynlər əlverişsiz nəticələrlə üzləşməmək üçün diqqətli olmalı, xəstəlik əlamətləri olan uşaqları bağçaya, məktəbə buraxmamalı və evdə təcrid edərək həkimə müraciət etəlidirlər".

# Nurgül Yeşilçay uzun müddət sonra ekranla qayıdır



**Türkiyəli məşhur aktrisa Nurgül Yeşilçay uzun müddət uzaq qaldığı ekranlara qayıdır.**

Oxu.az xəbər verir ki, aktrisa "Məktub" adlı serialla izləyicilərini sevindirəcək.

Yeşilçay serialda "Alanur" obrazını canlandıracaq.

# Bəy gəlini şillələdi, gəlin də bəyi...

## Ara qarışdı, toy ləğv edildi



**Qəribə ritualları ilə gündəm olan Hindistan bu dəfə də toy mərasimindəki münaqişə ilə yadda qalıb. Gəlin və bəy bir-birini şilləyib. Sözügedən görüntülərdə hər şey normal görünərkən bəyin gəlinin ağzına doğru etdiyi qəribə bir hərəkət aranın qarışmasına səbəb olub.**

Bəyin bu davranışına şillə ilə qarşılıq verən gəlin yaşanan münaqişəni daha da alovlandırıb.

Qarşılıqlı şəkildə biri-birinə zərbələr vurmağa başlayan gəlin və bəyi araya girənlər belə dayandıra bilməyib. Bunun ardından isə sözügedən toy mərasimi ləğv edilib.

**Nihat**




# 6 yaşlı qızla evləndi

## Məhkəmənin qərarı ağır oldu

**Türkiyədə "Hiranur" vəqfinin qurucusu Yusuf Ziya Gümüşelin 6 yaşlı qızı H.K.G-ni 29 yaşlı Qadir İstekli ilə dini nikahla evləndirdiyi iddialarını ələ alan məhkəmə qərarını açıqlayıb. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, məhkəmə Qadir İstekli haqqında 30 ildən az olmamaq, qızın atası Y.Z.Gümüşel haqqında isə 18 ildən az olmamaq şərtiylə azadlıqdan məhrumetmə hökmü çıxarıb.**

Qeyd edək ki, H.K.G. 6 yaşı olarkən atası tərəfindən Q.İstəkliylə dini nikahla evləndirilməsi şikayəti ilə məhkəməyə müraciət edib. Məhkəməyə iddia ərizəsində H.K.G. evləndirildiyi şəxslə birlikdə atasının da eyni dini icmaya mənsub olduğunu yazıb, şikayətində "anam mənə, "göz yaşlarını görməyim. Səni evləndirirk və bu, vacibdir" dedi. 6 yaşlı qızın faciəsi Türkiyə Ailə və Sosial Xidmətlər Bakanlığı tərəfindən araşdırılıb, daha sonra məhkəməyə müraciət edilib. Bundan sonra şübhəlilər polis nəzarətinə alınıb və məhkəmə istintaqına başlanılıb. Məlum olub ki, 2012-ci ildə iddiaya baxan İstanbul məhkəməsinə saxta sənəd təqdim olunub. O zaman məhkəmə qızın yaşının dəqiq müəyyənləşməsi üçün müayinə tələb edib. Lakin zərərçəkmişin əvəzinə yaşca böyük başqa bir qadını müayinəyə salıb, onun analiz cavablarını məhkəməyə təqdim ediblər. Qız bu barədə dəhlizdə dayanarkən təsadüfən eşidib. Q.İstekli müayinəyə yaşca böyük birisinin keçdiyini gördükdə "18 yaşlı birisini olması bəs idi. Bundan böyük yaşlı birisinin gətirilməsinə ehtiyac yox idi. Amma müstəntiqi əcəb aldatdıq", söylədiyinin şahidi olmuşdu. İstintaqı aldatma olayı da məhkəmə sənədlərinə əlavə edilib. Ata isə qızının 6 yaşında sadəcə, söz kəsildiyini, 16 yaşına çatdıqda nişanlandığını, 17 yaşında isə evləndirildiyini söyləməsinə baxmayaraq, zərərçəkmiş bunların heç birini qəbul etməyib və illərdir cinsi istismara məruz qaldığını söyləyib. Zərərçəkmiş həyat yoldaşıyla söhbətində bu haqda danışıb, bu səs yazısı da məhkəməyə sübut kimi təqdim edilib: "Mənim 6 yaşım vardı, sənin 29. Görmürdünmü, aramızdakı fərqi? Bu necə ola bilərdi? Kaş ki, böyüməyimi gözləyərdin. Sən düşünmədin, bəs atam, o necə razı oldu? İllərdir, mən boğuluram, nəfəs ala bilmirəm", - deyən H.K.G-yə cavanbında isə Q.İstekli "nə bilim, belə oldu. Mən də istəməzdim belə olmasını. Amma olub artıq, nə desən, haqlısan. Lakin keçmişi dəyişə bilmərik" söyləyir.

**Məlahət**





# Türkiyədə çətin əməliyyat

## 15 yaşlı uşağın mədəsindən 1 metrlik kabel çıxarıblar

**Türkiyənin Diyarbakır şəhərində qusma və ürəkbulanma şikayətləri ilə xəstəxanaya aparılan 15 yaşlı oğlanın mədəsində rentgen müayinəsi zamanı 1 metr uzunluğunda enerji yükləyici kabel aşkarlanıb.**

Azərtac medimagazin.com.tr-ə istinadla bildirir ki, Fırat Universiteti Xəstəxanasının Uşaq qastroenterologiyası, hepatologiya və qidalanma kafedrasının müdiri, professor Yaşar Doğan və komandasının həyata keçirdiyi endoskopik əməliyyatla uşağın mədəsindəki kabel müvəffəqiyyətlə çıxarılıb.

Əməliyyatı icra edən Yaşar Doğan kabelin bir ucunun nazik bağırsağa keçdiyi üçün çətinlik çəkdiklərini bildirib. Qeyd edib ki, uşaq müalicədən sonra sağlam şəkildə evə buraxılıb.

# Kennedinin qətli ilə bağlı minlərlə yeni sənəd paylaşıldı



**Cozef Bayden administrasiyası 1963-cü ildə ABŞ-ın 35-ci Prezidenti Con Kennedinin öldürülməsi ilə bağlı minlərlə məxfi sənədləri açıqlayıb.**

"Qafqazinfo" xəbər verir ki, Bayden administrasiyası Milli Arxivlər və Qeydlər Administrasiyasının (NARA) saytında sui-qəsdlə bağlı 12875 yeni sənədi ictimaiyyətlə paylaşıb.

Açıqlanan sənədlərin əksəriyyətinin redaktə prosesi zamanı silindiyi görünüb, bəzi sənədlər isə "kəşfiyyat fəaliyyətlərinə zərər verə bilər" səbəbiylə məxfi saxlanılıb.

Bu gün açıqlanan sənədlərin əksəriyyəti ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinə (MKİ) aid sənədlərdir.

ABŞ Prezidenti Co Bayden, qalan sənədlərin 30 iyun 2023-cü ilə qədər dərc olunacağını bildirib.

*Qeyd edək ki, ABŞ Prezidenti Con Kennedi 1963-cü il noyabrın 22-də seçki işləri üçün getdiyi Texasda sui-qəsd nəticəsində öldürülüb.*